Xalqın qəzeti!

# Xalq qəzeti

№ 148 (30552) 17 iyul 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Sabitlik və tərəqqi Azərbaycana yüksək sərmayə cəlbediciliyi qazandırıb

## *Son 20 ildə ölkəmizə 310 milyard dollar xarici kapital yatırılıb*



**Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını sürətləndirib. Bu məsələdə hökumət tərəfindən "açıq qapı" siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib.**

Ölkədə investisiya cəlbediciliyinin güclənməsində 1995-ci il yanvarın 13-də qəbul edilən "İnvestisiya fəaliyyəti haqqında" Qanun mühüm önəm daşıyır. Bu sənəd sərmayələrin iqtisadiyyata cəlbini stimullaşdırmaqla bərabər, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. "Xarici investisiyaların qorunması haqqında" Qanun da sərmayədarların hüquq və mənafelərinin qorunmasını, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılmasını şərtləndirir.

Bütün bunlarla yanaşı, Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı çoxsayda saziş imzalanıb. Avropa İttifaqının 20-dən çox üzv ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb. Bu və digər tədbirlərin nəticəsində son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici investisiya yatırılıb. Belə bir göstərici isə ölkəmizdə mövcud olan davamlı makroiqtisadi və maliyyə sabitliyi nəticəsində əldə edilən daxili və xarici investisiya fəallığını şərtləndirib.

Sağlam və şəffaf biznes mühitinin yaradılması ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırıb. Azərbaycanın beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalaması da iqtisadiyyata yatırılan daxili və xarici investisiya həcminin artırılmasını sürətləndirib.

*(ardı 7-ci səhifədə)*

# Milli azlıqlara haysayağı "qayğı"

## Ermənistanda bu "himayə"nin göstəriləcəyi milli azlıqların sayı gülüş doğurur

**Hərdən Ermənistandan elə maraqlı xəbər gəlir ki, heyrətlənməmək olmur. Deməli, bu günlərdə Hayastan ədliyyə nazirinin müavini Karen Karapetyanın və milli assambleyanın insan hüquqlarının müdafiəsi və ictimaiyyətlə əlaqələr daimi komissiyasının sədr müavini Rustam Bakoyanın sədrliyi ilə "Milli azlıqlar haqqında" qanun layihəsinin müzakirəsi keçirilib.**

Erməni mediası xəbər verir ki, qanun layihəsində milli azlıqların hüquqlarının qorunması üçün qanunvericilik bazasının gücləndirilməsi nəzərdə tutulub. Eyni zamanda, müzakirələr zamanı Avropa Şurasının Demokratiya və İnsan Ləyaqəti üzrə Baş Direktorluğunun məsləhətçiləri qanun layihəsi ilə bağlı Venesiya Komissiyası ilə birgə rəyini təqdim edib. Onlar təqdim etdikləri rəydə həm mövcud problemlər, həm də qanun layihəsi ilə bağlı sualları cavablandırıblar.



Avropa ilə ayaqlaşmaq xəttini tutan İrəvanın bu qanunvericilik təşəbbüsü, əslində, hay cəmiyyətinin monoetnik mahiyyətini ört-basdır etmək niyyətindən başqa bir şey deyil. Həmin qanun layihəsinin uydurma və saxtakarlıqdan ibarət olduğunu başa düşmək üçün Ermənistandakı demoqrafik durum üzrə ekspert olmağa ehtiyac yoxdur. Deməli, İrəvanın parlament tribunasından pafosla milli azlıqlar adlandırdığı xalqların bu ölkədə nümayəndələrinin sayı, demək olar ki, sıfıra bərabərdir. Buna tam əmin olmaqdan ötrü rəsmi statistikaya müraciət edək. Ermənistan dövlət statistika idarəsinin 2021-ci ilə olan məlumata əsasən, bu ölkədə 35 min 308 yezidi, 11 min 911 rus, 2 min 769 assur və 2 min 162 kürd yaşayır. Yəni, 3 milyondan bir qədər az əhalisi olan Ermənistanda cəmi-cümlətani 50 mindən bir qədər çox milli azlığın nümayəndəsi var.

**(ardı 3-cü səhifədə)**

# "Səlibçilər"in Qafqaza növbəti "yürüşü"



Səhifə ⇨ 3

# Millerin kompromis və çətin qərarlar məntiqi

## ABŞ-nin məqsədi nədir?



**ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin Azərbaycan və Ermənistan arasındakı sülh prosesi ilə bağlı açıqlaması maraqlıdır. Cənab Millerin nədən danışdığına diqqət yetirəcəyik. Amma əvvəlcə bir məqamı vurğulayaq.**

***

Artıq neçə müddətdir ki, Birləşmiş Ştatlar Bakı–İrəvan münasibətlərində, bir növ, vasitəçiliyə can atır. Daha doğrusu, vasitəçilik məsələsini diriltməyə çalışır. Əlbəttə, burada konkret məqsəd var: Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq. Belə başa düşmək olar ki, Cənubi Qafqazda sülh mühitinin formalaşması təkcə Kremli bölgədən uzaq tutmağa hesablanıb. Vaşinqtonda başqa təfərrüatlar üzərində dayanılmır. Bu isə qeyri-səmimi ab-hava yaradır.

Əslində, ABŞ Azərbaycan–Ermənistan sülh gündəminin təfərrüatlarına bir o qədər önəm vermir. Çünki bir sıra açıq qalan məsələlər var ki, onlardan ümumiyyətlə söz açılmır. Məsələn, götürək elə Azərbaycanın Naxçıvana maneəsiz yol tələbini. Ermənistan rəhbərliyi həmin yolda sərhəd və gömrük nəzarəti həyata keçirməkdən dəm vurur. İstəyini ölkənin ərazi bütövlüyü və suverenliyi kontekstində əsaslandırıb spekulyasiya yolu tutur. Rəsmi Bakı isə tələbinin yerinə yetməyəcəyi təqdirdə, Naxçıvana yolun İran ərazisindən keçəcəyini bildirir. Bu variant isə Birləşmiş Ştatların heç xoşuna gəlmir. Ölkə ötən il mövzu ilə bağlı sərt münasibət də ortaya qoymuşdu. Elə təəssürat yaranmışdı ki, Naxçıvana yol İrandan keçsə, Vaşinqton Azərbaycana təzyiq göstərməyə başlayacaq, sanksiya tətbiqinə start verəcək.

Vaşinqtonda yaxşı anlayırlar ki, Naxçıvana yolun İrandan keçməsi Ermənistanın təcriddə qalması deməkdir. Ölkə təcriddə qalacaqsa, deməli, özü özünü dolandırmaq imkanından məhrum duruma düşəcək. Quyuya isə su tökməklə sulu olmur. Nəticə etibarilə təcrid durumu Ermənistanda 2018-ci il inqilabı ilə formalaşmış Qərbyönümlü düzəni riskə atacaq. Deməli, sülh həm də buna görə lazımdır.

Bəli, ABŞ-nin son bir neçə aydakı vasitəçilik trayektoriyasında bu kimi məsələlərin üzərində dayanılmır və birbaşa elə rəy formalaşır ki, sanki Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması an məsələsidir. Bu məsələdə ölkəmizin rəhbərliyinin Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbi ilə əldə etməyə cəhd göstərdiyi maksimum təminat istəyi də süktula qarşılanır. Elə isə keçək Millerin indi nələrdən söz açmasına.

*(ardı 6-cı səhifədə)*

# BP-nin Azərbaycanda "yaşıl" addımları

**Azərbaycanın neft-qaz sektorunda reallaşdırılan bir sıra önəmli layihələrin operatoru olan BP şirkəti ölkəmizdə bərpaolunan enerji istehsalına da mühüm töhfələr verməyi nəzərdə tutur. Bu məqsədlə şirkət 2022-ci ildən SOCAR ilə fəal əməkdaşlıq edir. Xatırladaq ki, həmin il iyunun 4-də Bakı Enerji Forumu çərçivəsində Şuşada təşkil edilmiş "Xalis sıfıra aparan yol: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji potensialının inkişafı" mövzusunda xüsusi sessiyada SOCAR və BP şirkəti arasında yeni əməkdaşlıq müqaviləsi imzalanıb. Sözügedən sənəd ölkəmizdə bərpaolunan enerji potensialının öyrənilməsini, bu sahədə əməkdaşlıq məsələlərini və birgə layihələrin həyata keçirməsini nəzərdə tutur.**



BP-nin Xəzər regionunda kommunikasiyalar və xarici əlaqələr üzrə vitse-prezidenti B.Aslanbəyli bugünlərdə yerli mətbuata açıqlamasında bildirib ki, təmsil etdiyi şirkət Azərbaycanı enerjiyə keçid yolunda dəstəkləmək üçün SOCAR ilə yeni sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir. "Perspektivdə SOCAR ilə Azərbaycanda bərpaolunan enerji mənbələri, dekarbonizasiya və elektrikləşdirmə sahəsində yeni layihələr üzrə sıx əməkdaşlığa davam edəcəyik. Aydın məsələdir ki, bu, innovativ yanaşma tələb edəcək və biz bu planda aparıcı mövqedə olmağa çalışırıq", – deyə o, əlavə edib.

*(ardı 8-ci səhifədə)*

# Milli komandamız zəfər estafetimizi davam etdirəcək




Səhifə ⇨ 11

## "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasına uyğun olaraq, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 595 (Cild I) ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"na aşağıdakı məzmunda 5.2-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 5.2-1. | yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin birinci və ikinci cümlələrində, altıncı hissəsinin ikinci cümləsində, yeddinci hissəsinin birinci və ikinci cümlələrində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-1.3-cü, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (hər iki halda) və 14-2.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-2.3-cü maddəsinin birinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.3. həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin ikinci cümləsində, altıncı hissəsinin ikinci cümləsində və 14-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsinin birinci cümləsində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci cümləsində, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (birinci halda) və 14-2.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 14-cü maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində və 14-1.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. beş ay müddətində:

2.1.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-2.3-cü maddəsinin birinci cümləsinə uyğun olaraq, elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.1.2. aşağıdakı normativ hüquqi aktları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.2.1. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı layihələrə texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəy verilməsi qaydasını;

2.1.2.2. həmin Qanunun 14-cü maddəsinin altıncı hissəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılması qaydalarını;

2.1.2.3. həmin Qanunun 14-1.3-cü maddəsinə uyğun olaraq, elektron xidmətlərin təşkili və göstərilməsi qaydalarını;

2.2. "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "20-1.3-cü maddəsində" sözləri "14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin birinci və ikinci cümlələrində, altıncı hissəsinin ikinci cümləsində, yeddinci hissəsinin birinci və ikinci cümlələrində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-1.3-cü, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 14-2.4-cü, 20-1.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 2.1-1-ci bəndə "abzasında," sözündən sonra "14-2.3-cü maddəsinin birinci cümləsində (ikinci halda)," sözləri əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 2.1-2-ci bənd əlavə edilsin:

"2.1-2. həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin ikinci cümləsində, altıncı hissəsinin ikinci cümləsində və 14-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.4. 2.2-ci bənddə ", 13-1.3-cü maddəsində və 14-cü maddəsinin üçüncü hissəsində" sözləri "və 13-1.3-cü maddəsində" sözləri ilə əvəz edilsin;

4.5. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü və 2.5-ci bəndlər əlavə edilsin:

"2.4. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsinin birinci cümləsində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci cümləsində, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (birinci halda) və 14-2.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 14-cü maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində və 14-1.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## C.T.Əbdul-Qədirovun Oğuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Cavid Teyrun oğlu Əbdul-Qədirov Oğuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## İ.M.Məmmədovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında media sahəsində səmərəli fəaliyyətinə görə İbrahim Məmməd oğlu Məmmədov 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## E.D.Qurbanovun Oğuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Eyvaz Daşdəmir oğlu Qurbanov Oğuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1168-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1168-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 405-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 405-1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1168-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151,157) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə "395.1-1," rəqəmlərindən sonra "405-1.2," rəqəmləri əlavə edilsin;

3.2. 4.24-cü, 4.31-ci, 4.34-1-ci, 4.36-cı, 4.41-ci, 4.43-1-ci, 4.45-ci, 5.6-2-ci, 5.18-ci, 5.18-1-ci, 5.19-cu, 5.21-ci, 5.22-ci, 5.41-ci, 5.44-cü, 5.45-ci və 5.51-ci bəndlərdən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 4.31-1-ci bənd əlavə edilsin:

"4.31-1. həmin Məcəllənin 405-1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;";

3.4. 4.48-1-ci bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" və "ya müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti," sözləri çıxarılsın;

3.5. 5.46-cı bəndə "Məcəllənin" sözündən sonra "405-1," rəqəmləri, "449-1," rəqəmlərindən sonra "451-1," rəqəmləri əlavə edilsin və həmin bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın.

**4.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I) 2.6-cı bəndindən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" və "və ya müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti" sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci abzasdan "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

5.2. 6.0-cı bəndə "430.1" rəqəmlərindən əvvəl "405-1," rəqəmləri, "449-1," rəqəmlərindən sonra "451-1," rəqəmləri əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 may tarixli 77 nömrəli və 12 iyun tarixli 99 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"nin 5.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5.1. Xidmətin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar, habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti qurumu Xidmətin vahid sistemini təşkil edir. Xidmət öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 1201-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 63 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndində "ekspertizasından keçirilməli olan obyektlər barədə ekspert" sözləri "ekspertizası" sözü ilə əvəz edilsin.

**2.** 8-ci hissənin "Göstərdiyi xidmətlər" sütununun 3-cü bəndində "reyestrinə daxil edilməsi" sözləri "reyestrində qeydiyyatdan keçirilməsi" sözləri ilə əvəz edilsin.

**3.** 14-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndində "qeydiyyat vəsiqəsi" sözləri "vəsiqə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

# “Səlibçilər”in Qafqaza növbəti “yürüşü”

**Ermənistanda start götürən ABŞ–Ermənistan birgə hərbi təlimlərin ABŞ–Aİ–Ermənistan üçlüyünün 5 aprel Brüssel “tamaşasının” davamı olduğunu söyləyə bilərik. Bu təlimləri üçtərəfli separat anlaşmanın bir qolu kimi də dəyərləndirmək olar. Digər istiqamət isə həmin kollektiv Qərbin ermənilərin Qarabağa qayıtması məsələsini davamlı olaraq gündəmə gətirmək cəhdləridir. Azərbaycana qarşı düşünülmüş “böyük planın” tərkib hissəsi sayıla biləcək bu fəaliyyətlər bölgədə marağı olan Rusiya və İranın gözləri qarşısında həyata keçirilir. Kollektiv Qərbin, Fransanın, ABŞ-nin Ermənistan üzərindən Qafqaza çeşidli müdaxilələri fonunda Moskva ara-sıra etiraz bəyanatları səsləndirdiyi halda, rəsmi Tehran, ümumiyyətlə, səsini çıxarmır. ABŞ-nin timsalında NATO az qala qulağının dibinə qədər yerisə də, İran susur... Tehranın müşahidə olunan bu maraqlı mövqeyi həm də bəzi ehtimal və fərziyyələrə yol açır.**



* * *

Son vaxtlar okeanın o tayından diplomatların, missionerlərin İrəvana səfərləri bir-birini əvəzləyir. İyulun əvvəlində senator Rocer Uikerin başçılıq etdiyi nümayəndə heyəti, onun ardınca USAID rəhbəri Samanta Pauer Ermənistanda olublar. Üç gün bundan əvvəl isə ABŞ Dövlət katibinin müavini Uzra Zeya İrəvanda maraqlı görüşlər keçirib. Rəsmi məlumata əsasən, İrəvanda hökumət rəsmiləri ilə görüşlərində “erməni-amerikan əməkdaşlığının gücləndirilməsi, Ermənistanın demokratiya, qanunun aliliyi, korrupsiya ilə mübarizə və məhkəmə islahatları sahələrində nailiyyətlərinin təbliği” kimi məsələləri müzakirə edib. Baş nazir Nikol Paşinyan Uzra Zeya ilə görüşündə Bakı və İrəvan arasında sülh danışıqları prosesini müzakirə edib. “Tərəflər Ermənistan və Azərbaycan arasında sülh prosesini müzakirə ediblər. ABŞ Dövlət katibinin müavini vurğulayıb ki, ABŞ iki ölkə arasında həqiqi sülhün bərqərar olmasına və regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdə davam edəcək”, – məlumatda deyilir.

Kollektiv Qərbin emissarlarının bölgəyə səfərlərini Moskvada da diqqətlə izləyir və yeri gələndə buna reaksiya verirlər. “Amerikalıların Cənubi Qafqazda peyda olması bölgədə mövcud münaqişə potensialını gücləndirəcək və ayırıcı xətlər yaradacaq”. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistan–ABŞ birgə hərbi təlimlərinə münasibət bildirərkən deyib. Birgə təlimlərin İrəvanın KTMT-də iştirakını dondurması və təşkilata qarşı səsləndirdiyi açıq bəyanatları fonunda keçirildiyinə diqqət çəkən M.Zaxarova bildirib ki, bu zaman Qərb ölkələri bölgədə sülhlə bağlı hədəflərinin olduğunu bəyan etsələr də, onlar üçün əsas məsələ geosiyasi layihələr üçün platsdarm yaratmaqdır. Rusiya XİN rəsmisinin sözlərinə görə, Qərb bütün gücü ilə İrəvanı regionda və onun ətrafında müxtəlif formatlara cəlb edir: “Əslində, bu fəaliyyət, ilk növbədə, Rusiya və İrana qarşı yönəlib”.

* * *

Qərbin Cənubi Qafqazda fəallaşması prosesinə erməni cəmiyyətində müxtəlif yanaşmalar və dəyərləndirmələr var. Misal üçün, regional məsələlər üzrə ekspert Armen Poqosyan “NEWS.am”ın Qərbin bölgədə əsl maraqları barədə sualına belə cavab verib: “Qərbin marağı bir qədər fərqlidir. Qərb üçün vacib olan Orta dəhliz marşrutudur ki, bu da, əslində, Rusiyanın Şimal–Cənub layihəsinə alternativ olacaq. Çünki Ukraynadakı hərbi münaqişə sabah və ya o biri gün sona çata bilər. Ona görə Qərb üçün çox vacibdir ki, müharibədən sonrakı mərhələdə Avropaya enerji daşımalarının əsas həcmi Rusiyadan yan keçsin”.

Poqosyanın sözlərinə görə, bundan əlavə, Orta dəhliz postsovet məkanında bir sıra ölkələri də əhatə edir. “Bu halda həmin ölkələr də Rusiyanın təsirindən qurtulacaqlar. Qərb bunun üzərində işləyir və ortada iki vacib amil var. Bunlardan birincisi, yolun heç bir halda İran ərazisindən keçməməsidir. İkincisi isə region ölkələrinin suverenliyi və ərazi bütövlüyü heç bir şəkildə pozulmamalıdır”, – deyə erməni ekspert fikrini yekunlaşdırıb.

Bəs, yerli ekspertlər Cənubi Qafqazda cərəyan edən prosesləri necə dəyərləndirirlər? Bölgənin şimalında və cənubunda yerləşən Rusiya və İranın ABŞ başda olmaqla, Qərbin Qafqaz planlarına niyə dişli reaksiya verməmələrini nə ilə izah edirlər?

**Mövzu ilə bağlı “XQ”-yə açıqlama verən Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov** son vaxtlar xarici aktorların regionda fəallaşmasının səbəblərinə toxundu: “Bölgədə onların fəallığından irəli gələn hər hansı proses müşahidə olunmur. Ermənistanla Azərbaycan arasında davam edən sülh danışıqlarında da dəyişiklik yoxdur. ABŞ rəsmiləri sülh sazişinin qarşıdakı bir ayda, hətta həftələrdə imzalanacağını bəyan etsələr də, reallıq onu göstərir ki, yaxın gələcəkdə, bu, mümkün deyil. Birləşmiş Ştatlar həm daxildə gözlənilən seçkilər ərəfəsində, həm də Ukraynaya yardımla bağlı fəallaşıb. Amma bir sıra dövlətlər gözləmə mövqeyindədirlər. Hesab edirik ki, qarşıdakı üç ay ərzində bu proseslər gündəmdən düşməyəcək. Eyni zamanda, Ağ evin fəal xarici siyasət yürüt-



məsinə imkanı olmayacaq. Region ölkələrinə gəldikdə isə Rusiya yaxın aylarda yeni silahlarla təchiz edilmiş Ukrayna ordusu ilə baş-başa qalacaq və hərbi eskalasiya özünün pik nöqtəsinə çatacaq. Əslində, qarşı duran tərəflər Ukraynada yeni reallığın formalaşmasını istəyirlər”.

Regionda baş verən hadisələrə Tehranın susqun qalmasına münasibət bildirən politoloq bunu İranda yeni hökumətin formalaşması ilə izah etdi: “Yaxın Şərqdə proseslərə diqqət yetirsək, deməliyik ki, İsrail Livana daxil ola, yaxud Hizbullaha qarşı birbaşa cəbhə aça bilər. Yəni, Tehranın başı daha çox Yaxın Şərqdə cərəyan edəcək hadisələrə qarışacaq. Belə durumda regional məsələlərə diqqət ayırmaq bir qədər çətinləşir. Onu da nəzərə almaq lazımdır ki, Ermənistan Qərbə inteqrasiyası meyillərində Rusiyanın və İranın “qırmızı xətlərini” hələ keçməyib. Doğrudur, ABŞ–Ermənistan birgə hərbi təlimləri İran üçün bir siqnaldır. İran səfirinin Ermənistanın müdafiə naziri ilə görüşü məhz bununla bağlı idi. Fəqət hələlik Ermənistan nə MDB və KTMT-dən, nə də Avrasiya İttifaqından çıxıb. Payızda bu platformalarda etirazların baş qaldıracağı istisna edilmir. Artıq bu barədə söhbətlər var. Sanki, indi hamı hazırlıq mövqeyindədir. Bu səbəbdən bölgədə hansısa radikal addımların atılacağı ağlabatan deyil”

* * *

Göründüyü kimi, sülh danışıqlarında vasitəçilik statusunu itirmiş Vaşinqton Ermənistanla münasibətləri daha da dərinləşdirmək, İrəvana təsirini artırmaq, Rusiyanın təzyiqlərini isə azaltmaq yönündə fəaliyyəti gücləndirməkdə israrlıdır. Okeanın o tayından bölgəyə səfərlərin intensivləşməsinin əsas səbəbi də budur. ABŞ və Aİ Gürcüstanla bağlı “ssenarisi” pozulduqdan sonra Cənub Qafqazda özlərinin “forpostu” kimi Ermənistana “stavka” edirlər. “Səlibçilər” sülh prosesinə dəstək bəhanəsi ilə Ermənistan üzərindən Qafqaza yeni “yürüşü” reallaşdırmağı hədəfləyirlər. Onların bu niyyətlərinə çatana qədər sülh prosesnə mane olacaqları şübhə doğurmur. Əlbəttə ki, sülh müqaviləsinin imzalanması, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, ikitərəfli əməkdaşlığın bərpası regionda öz maraqlarını güdən “böyük güclər”ə sərf eləmir.

İndi Paşinyan hakimiyyəti özündə təpər tapıb Qərbin növbəti oyununda “piyada”ya çevrilmək riskindən qurtulmağı bacararsa, Azərbaycanla sülh prosesini davam etdirərsə, bu halda kənar aktorlar da prosesdə iştirak etməyə çalışacaqlar. Amma, deyəsən, Ermənistan rəhbərliyi regionda ABŞ (Qərb) ilə Rusiya arasında gedən qarşıdurmadan bəhrələnmək barədə düşünür. Bu isə eyni vaxtda “iki stulda əyləşmək” taktikasından da qorxulu və İrəvana yaxşı heç nə vəd etməyən perspektivdir.

**“Xəzər” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu** hesab edir ki, ABŞ-nin Cənubi Qafqazdakı maraqları bölgənin əsas dövləti sayılan Azərbaycanla əməkdaşlığın gücləndirilməsini diktə edir: “Azərbaycanın da iştirakçısı olduğu Orta dəhliz layihəsi Ağ evin maraqlarına cavab verir. Azərbaycanın Avropaya qaz, neft və alternativ enerji nəqli də ABŞ üçün əhəmiyyətlidir. Vaşinqton Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasına çalışır, bu istiqamətdə fəallığını artırıb. Rəsmi Bakı Vaşinqtonun moderatorluğunun



əleyhinə deyil, əməkdaşlığın inkişafında da maraqlıdır. Amma Azərbaycanın Vaşinqtonun Qafqaz siyasəti ilə bağlı bir neçə cidd sualı var. Birincisi, ABŞ-nin Ermənistanla birgə həyata keçirdiyi hərbi təlimlərin məqsədi nədir? İkincisi, Amerikada bəzi siyasi mərkəzlərin Qarabağ mövzusunu hələ də “diqqətdə” saxlamağının arxasında nələr gizlənir? Aydındır ki, Vaşinqtonun Ermənistanla yaxınlaşmasının və bu ölkə ilə birgə hərbi təlimlər keçirməsinin məqsədi İrəvanı Rusiyadan uzaqlaşdırmaqdır. Vaşinqton çalışır ki, Nikol Paşinyan hökuməti qısa müddət ərzində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etsin. Paşinyan buna hazırdır, ancaq bunun qarşılığında Ağ evdən təhlükəsizlik təminatı almaq istəyir. Vaşinqton Ermənistana bu təminatı verə bilmir”.

E.Şahinoğlunun qənaətinə görə, ABŞ Ermənistanla birgə təlimlər keçirəndə anlamalı idi ki, bu, Azərbaycanda haqlı narazılıq doğuracaq: “Çünki Ermənistan hələ Azərbaycanla sülh sazişi imzalamayıb və bu durumda müharibə ehtimalı ortadan qalxmayıb. Belə çıxır ki, ABŞ-nin hədəfi Rusiya olsa da, Ermənistan ordusuna təlimlər keçməklə qonşu ölkəni Azərbaycana qarşı gücləndirir. Vaşinqton nəzərə almalıdır ki, bu, Azərbaycan–ABŞ münasibətlərinə mənfi təsir edəcək. Məhz bu cür siyasətə görə rəsmı Bakı Brüsselin sülh moderatorluğundan imtina etdi. Aİ də bir ara İrəvanla Bakı arasında fəal moderator idi. Fəqət, elə ki, danışıqlar masasında Fransa prezidenti oturmağa çalışdı, proses pozuldu və Bakı haqlı olaraq Brüssel formatından müvəqqəti olaraq imtina etdi. İndi eyni səhvi Vaşinqton edir. ABŞ Azərbaycanla Ermənistan arasında həm moderatorluq etmək istəyir, həm də Ermənistan ordusunu gücləndirməyə çalışır”.

* * *

Yaranmış durumda “bir əldə iki qarpız tutmağa” çalışan Vaşinqton, doğrudan da, tərəfsiz olduğunu əməldə sübut etməlidir. “Sülh göyərçini”ndən danışan rəsmi Vaşinqtonun səmimiyyəti şübhə altına düşməməlidir. Axı, ötən otuz ildə Azərbaycan NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində ABŞ-a dəstək verib, onunla həmişə səmimi davranıb.

Rəsmi Moskva ABŞ–Ermənistan birgə hərbi təlimlərindən narahatlığını bir neçə dəfə bildirsə də, bu kontekstdə Tehranın susqunluğu diqqət çəkir. ABŞ-ni “şeytan” adlandıran İran hakimiyyəti qulağının dibində NATO hərbçilərinin təlim keçirməsini hələlik sakitcə seyr edir. Əslində, bu mövqenin özü də ikili standarta nümunə sayılmalıdır. Əgər ABŞ-ylə birgə hərbi təlimləri Azərbaycan keçirsəydi, yəqin ki, Tehranın narazılığı aləmi bürümüşdü.

Sonda Ermənistan–Rusiya münasibətlərinin indiki durumuna bir daha nəzər yetirmək istərdik. Bunu əvvəlki məqalələrimizdə də yazmışıq: Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalardan ən çox qazanan ölkə məhz Ermənistandır. İrəvan digər tərəfdən o qədər də “dərinə işləməyən” demarşları ilə özünü ABŞ və Qərb üçün cəlbedici etməyə, onlardan həm iqtisadi, həm diplomatik, həm də siyasi dəstək almağa çalışır. Bu, əsl erməni siyasətidir. İntəhası, İrəvanın bu “buqələmun” siyasətini hara qədər davam etdirə biləcəyi, əks qütblərdə olan “divlərlə” müttəfiqliyini hansı nöqtəyədək daşımağı bacaracağı böyük sual işarəsi altındadır. Çox yaxın gələcəkdə Ermənistanın bu ikibaşlı siyasəti iflasa uğraya bilər. Vaşinqton, Brüssel, Paris, Moskva, əslində, İrəvanın bu manevrlərlə hərbi-siyasi, iqtisadi dividendlər əldə etməyə çalışdığını yaxşı anlayırlar. Fəqət, məqamı çatanda və seçim dilemması ilə üzləşəndə Ermənistan hakimiyyəti başından böyük oyuna girdiyinin fərqinə varacaq.

ABŞ və Qərbin regionda güclənməsi bu gün Rusiyanın diplomatik səviyyədə etirazlarına tuş gəlir. Bu siyasətin yaxın gələcəkdə İranın da ciddi etirazı ilə üzləşəcəyi şübhə doğurmur. Müstəqil siyasət yürüdən suveren Azərbaycan isə regionda tezliklə sülhün bərqərar olmasında və bu zaman bölgəyə heç bir kənar aktorun müdaxiləsinə yol verməməkdə israrlıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Milli azlıqlara haysayağı “qayğı”

**(əvvəli 1-ci səhifədə)**

Bu qədər az olmalarına baxmayaraq, erməni etnik qrupunun dominant mövqeyinə heç bir şəkildə təhlükə törətməyən azsaylı xalqlar uzun illərdir ki, özlərinə qarşı “aborigenlərin” nifrətinin təzahürləri ilə üzləşirlər. Bu sırada ən acınacaqlı vəziyyət Ermənistan cəmiyyətində tez-tez



mənfi obrazda təqdim olunan yezidilərlə bağlıdır. Onların övladları Ermənistan ordusunda hər cür təhqirlərə məruz qalır, təqib və sui-istifadə hədəfinə çevrilirlər. Bir müddət bundan əvvəl yezidi mənşəli əsgər Artur Ajamyana erməni Yurik Broyanın sataşması, onu qətlə yetirməsi böyük hay-küyə səbəb olmuşdu.

İki yüz ildən çoxdur etnik dözümsüzlük kompleksinə mübtəla olmuş hayların əhalinin və ərazinin çoxluğunu təşkil edən azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri bizdən yaxşı kim nəql edə bilər?

Məgər Sovet Ermənistanının ermənilərin monoetnik dövlətinin prototipi kimi yaradıldığını bimeyən var? Hələ Ermənistan SSR yaranmazdan əvvəl hayların Osmanlı imperiyasından və Qacar dövlətindən keçmiş İrəvan xanlığının torpaqlarına mütəmadi olaraq köçürülməsi tarixi faktdır. “Erməni arzusu”nu həyata keçirmək üçün bu bölgənin əhalisinin əksəriyyətini təşkil edən, vahid etnik qrup sayılan azərbaycan türklərini yurdlarından niyə didərgin salındığı da hamıya bəllidir. İstər Rusiya imperiyasında, istərsə də “qırmızı imperiya” deyilən SSRİ-də məqsədyönlü şəkildə həyata keçirilən erməniləşdirmə siyasəti nəticəsində azərbaycanlıları tarixən məskunlaşdıqları ərazilərdən tədricən “əritməyə” başladılar. Həmin etnik təmizləmənin kədərli səhnələri ötən əsrin 40-cı illərinin sonlarında 300 minə yaxın soydaşımızın Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi zamanı yaşandı. XX əsrin 80-ci illərinin sonunda isə ermənilərin daşnak-şovinist dəstələri 250 min azərbaycanlını Ermənistan SSR-dən qovdu.

Tarixin və taleyin ironiyasına fikir verin: 250 min azərbaycanlını geri qaytarmaq və onlara bərabər hüquqlar vermək öhdəliyini qəbul etməyən İrəvan indi sayı 50 min olan milli azlıqlar haqqında qanunu müzakirə edir.

Ermənistan hakimiyyəti Avropa strukturları ilə ayaqlaşmaq, onlarla bərabərhüquqlu “demokratiya”, “azadlıq” oyunu oynamaq üçün siyasi məntiqə uyğun gələn və gəlməyən bütün addımları atır. Burada da ikili standartların “quyruğu” açıq-aşkar görünməkdədir. Ermənistan cəmiyyətində milli azlıqların hüquqları ilə bağlı müzakirələr bu ölkədən qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpası ilə başlanmalıdır. İnsan hüquqlarının müdafiəçisi, demokratik Qərb nəinki bunu etmir, əksinə, Azərbaycandan qovulduğunu iddia etdiyi Qarabağ ermənilərinin geri qaytarılması məsələsini gündəmə gətirməyə çalışır.

Bu məqamda maraqlı bir təfərrüata varmaq yerinə düşər: daha çox Avropa Şurasının Venesiya Komissiyası kimi tanınan Avropa Komissiyasının insan hüquqları və demokratiya üzrə komitəsi toplaşdığı şəhərin adı ilə məşhurdur. Yaxşı olardı ki, bu komissiya özünün ilkin vəzifələrini yerinə yetirsin və Ermənistanı Azərbaycana qarşı ərazi iddialarına son qoyacaq konstitusiya islahatı aparmağa məcbur etsin. Məhz bu addımla Ermənistan–Azərbaycan münasibətlərinin bərpasına yol açıla bilər. Bu isə istər-istəməz təkcə milli azlıqların tezliklə “Qırmızı kitab”a düşəcək nümayəndələrinin deyil, həm də ermənilərin özlərinin vəziyyətinin yaxşılaşmasına gətirib çıxarar.

***İ.HƏSƏNQALA***
***XQ***

# Fransa əsarətinə qarşı Bakı Qurultayı

**Bu gün Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda birinci Qurultay keçiriləcək.**




“Fairmont” hotelində baş tutacaq Qurultayın ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat Qurultayın işində fəxri qonaq qismində iştirak edəcək.

İki gün davam edəcək Qurultay iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa kolonializminə qalib gəlmək üçün nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yollarını müzakirə etmək imkanı yaradacaq.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu artıq bir ildir ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, BTQ tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda təşkil olunub.

***XQ***

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 11.1.3.12-ci (ikinci halda), 11.1.4.13-cü (ikinci halda), 11.1.5.5-ci (ikinci halda) və 11.1.6.2-ci (ikinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, həmçinin 11.1.1.4-cü, 11.1.2.14-cü, 11.1.3.3-cü və 11.1.4.5-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 11.1.1.2-ci və 11.1.2.7-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmənin səlahiyyətlərini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsi – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi həyata keçirir;

1.4. həmin Qanunun 11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci və 11.1.4.4-cü maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti, 11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci (bölmə (şöbə) rəhbərinə münasibətdə) və 11.1.4.4-cü maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini isə həmçinin Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirirlər;

1.5. həmin Qanunun 11.1.3.12-ci (birinci halda), 11.1.4.13-cü (birinci halda), 11.1.4.14-cü, 11.1.5.4-cü, 11.1.5.5-ci (birinci halda) və 11.1.6.2-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.6. həmin Qanunun 11.1.3.14-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;

1.7. həmin Qanunun 11.1.5.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) həyata keçirirlər;

1.8. həmin Qanunun 11.1.5.11-ci (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) və 11.1.7.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.9. həmin Qanunun 11.1.6.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.10. həmin Qanunun 11.1.6.5-ci və 11.1.7.3-cü maddələrində nəzərdə tutulmuş:

1.10.1 müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;

1.10.2. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

1.11. həmin Qanunun 11.1.7.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

1.12. həmin Qanunun 11.1.8.1-ci maddəsində nəzərdə tutulmuş:

1.12.1. müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.12.2. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar həyata keçirirlər;

1.12.3. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

1.12.4. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

1.13. həmin Qanunun 11.1.8.2-ci maddəsində nəzərdə tutulmuş:

1.13.1. müvafiq icra hakimiyyəti orqanları yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında olan orqanlar həyata keçirirlər;

1.13.2. ikinci halda müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**3.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 may tarixli 74 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə "11.1.5.2-1-ci (ikinci halda), 11.1.6.1-1-ci" sözləri "11.1.3.12-ci (ikinci halda), 11.1.4.13-cü (ikinci halda), 11.1.5.5-ci (ikinci halda), 11.1.6.2-ci" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-ci bənddə "11.4-cü maddəsinin ikinci hissəsində" sözləri "11.3-cü maddəsində" sözləri ilə, "11.1.1.1-ci, 11.1.2.1-ci, 11.1.3.2-ci və 11.1.4.3-cü" sözləri "11.1.1.4-cü, 11.1.2.14-cü, 11.1.3.3-cü və 11.1.4.5-ci" sözləri ilə əvəz edilsin;

3.3. 3.5-ci bənddə "11.1.1.1-ci, 11.1.2.2-ci, 11.1.3.3-cü və 11.1.4.2-ci" sözləri "11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci və 11.1.4.4-cü" sözləri ilə, "11.1.1.1-ci, 11.1.2.2-ci (müavinə və bölmə rəhbərlərinə münasibətdə) və 11.1.4.2-ci" sözləri "11.1.1.3-cü, 11.1.2.10-cu, 11.1.3.2-ci (bölmə (şöbə) rəhbərinə münasibətdə) və 11.1.4.4-cü" sözləri ilə əvəz edilsin;

3.4. 3.9.2-ci yarımbənddə və 3.22-2-ci bənddə "avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri" sözləri "olan orqanlar" sözləri ilə əvəz edilsin;

3.5. 3.10-cu bənddə "11.1.1.1-ci və 11.1.2.1-ci" sözləri "11.1.1.2-ci və 11.1.2.7-ci" sözləri ilə əvəz edilsin;

3.6. 3.11-ci bənd ləğv edilsin;

3.7. 3.12-ci bənddə "11.1.3.7-ci" sözləri "11.1.3.14-cü" sözləri ilə əvəz edilsin;

3.8. 3.12-1-ci bənddə "11.1.5.2-1-ci (birinci halda) və 11.1.6.1-1-ci" sözləri "11.1.3.12-ci (birinci halda), 11.1.4.13-cü (birinci halda), 11.1.4.14-cü, 11.1.5.4-cü, 11.1.5.5-ci (birinci halda) və 11.1.6.2-ci" sözləri ilə əvəz edilsin;

3.9. 3.13-cü bənddə "11.1.5.4-cü" sözləri "11.1.5.11-ci" sözləri ilə əvəz edilsin və həmin bənddən "və 11.1.8.2-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının" sözləri çıxarılsın;

3.10. 3.14-cü bənddə "11.1.6.2-ci" sözləri "11.1.6.3-cü" sözləri ilə əvəz edilsin;

3.11. 3.15-ci bəndin birinci abzasında "11.1.6.4-cü" sözləri "11.1.6.5-ci" sözləri ilə əvəz edilsin;

3.12. 3.18-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.18. həmin Qanunun 11.1.8.2-ci maddəsində nəzərdə tutulmuş:

3.18.1. müvafiq icra hakimiyyəti orqanları yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında olan orqanlar həyata keçirirlər;

3.18.2. ikinci halda müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;";

3.13. 3.22-4-cü bəndə "Qanunun" sözündən sonra "11.1.5.7-ci maddəsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

## "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qan və qan komponentlərinin donorluğu və qan xidməti sahəsində fəaliyyətin səmərəliliyini daha da artırmaq məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Respublika Qan Bankı" (bundan sonra – Qan Bankı) publik hüquqi şəxs yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Qan Bankı qan və qan komponentlərinə olan tələbatın ödənilməsi sahəsində fəaliyyət göstərən, qan və qan komponentlərinin tədarükünü, emalını, yoxlanılmasını, saxlanılmasını və bölüşdürülməsini təmin edən publik hüquqi şəxsdir;

2.2. Qan Bankının fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Qan Bankının fəaliyyətinə cari rəhbərliyi icraçı direktor həyata keçirir.

**3.** Qan Bankının təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Qan Bankının yenidən təşkili və ləğv edilməsi;

3.1.2. Qan Bankının idarəetmə orqanlarının yaradılması;

3.2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

5.1. Qan Bankının nizamnaməsini iki ay müddətində təsdiq etsin;

5.2. Qan Bankının dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.3. Qan Bankı dövlət qeydiyyatına alındıqdan sonra onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.4. bu Fərmanın 2.1-ci bəndi nəzərə alınmaqla, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin nizamnaməsində, strukturunda və işçilərinin say həddində dəyişiklik edilməsi üçün zəruri tədbirlər görsün;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Qan Bankı dövlət qeydiyyatına alındığı günədək Milli Hematologiya və Transfuziologiya Mərkəzinin qan xidməti sahəsində fəaliyyət göstərən struktur bölmələri fəaliyyətini həmin Mərkəzin tabeliyində davam etdirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

# Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün aparılan işlər barədə məlumatlandırılıb

**İyulun 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı missiyasının rəhbəri Troy Duli ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı missiyanın rəhbəri etimadnamə məktubunun surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Troy Duliyə fəaliyyəti müddətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlıq perspektivləri, eləcə də cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin Beynəlxalq Miqrasiya Təşkilatı ilə sıx əməkdaşlığının mövcud olduğunu qeyd edərək, xüsusilə miqrasiya sahəsində qanunvericiliyin və institutların təkmilləşdirilməsi üzrə birgə layihələrin icrasının məmnunluq doğurduğunu bildirib.

Keçmiş Ermənistan–Azərbaycan münaqişəsinə toxunan nazir münaqişə nəticəsində ölkəmizin genişmiqyaslı miqrasiya problemi ilə üzləşdiyini, Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkün düşdüyünü xatırladıb. Postmünaqişə dövründə məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün aparılan işlər barədə məlumat verilib.

Ölkəmizin cari ildə COP29-a evsahibliyi edəcəyini xatırladan nazir Ceyhun Bayramov iqlim dəyişikliyinin əlaqədar olduğu bir sıra sahələr, o cümlədən miqrasiya istiqaməti üzrə əməkdaşlığın vacibliyini vurğulayıb. Bu istiqamətdə Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlığa hazır olduğumuz diqqətə çatdırılıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

## "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununun 14-1.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-1.2-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 68 (Cild I); 2024, № 1, maddə 26) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "maddəsində" sözündən sonra ", 14-1.2-ci maddəsinin üçüncü cümləsində" sözləri əlavə edilsin;

3.2. 2.2-ci bənddə birinci halda "maddəsində" sözü "maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 2.2-2-ci bənd əlavə edilsin:

"2.2-2. həmin Qanunun 14-1.2-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2024-cü il**

# "Birləşdik – 2024" qardaşlıq təlimi




**"Birləşdik – 2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimi çərçivəsində "Бағдар" taktiki səmti müəyyənetmə, atıcılıq və bir sıra idman növləri üzrə yarışlar, həmçinin hərbi qulluqçuların mədəni-asudə vaxtının səmərəli təşkili məqsədilə digər tədbirlər təşkil edilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yarışlarda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının hərbi qulluqçuları güclərini sınayıblar.

Yarışların nəticəsinə əsasən, qaliblərə kuboklar, medallar, Fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

Sonda təlim iştirakçıları üçün konsert proqramı təşkil edilib.

***XQ***



# Milli Məclisə seçkilərə 45 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Seçki məntəqələri hazırlıq işlərini yekunlaşdırmaq üzrədir

**Bu il sentyabrın 1-nə təyin olunmuş növbədənkənar parlament seçkilərinə hazırlıq işləri davam edir. Hazırda depuatatlığa namizəd olmaq istəyənlər sənədlərini dairə seçki komissiyalarına təqdim edir, namizədlikləri təsdiqlənənlər isə imzatoplama kampaniyasına start veriblər. Seçkilərin mütəşəkkil keçirilməsində məntəqə seçki komissiyalarının da üzərinə müəyyən vəzifələr düşür. Hazırlıq işlərini davam etdirən seçki məntəqələrindən biri də 66 saylı Saatlı seçki dairəsinin 5 saylı məntəqə seçki komissiyasıdır. Məntəqəyə Çingiz Fətullayev sədrlik edir. Onun bu sahədə zəngin təcrübəsi var. 20 ilə yaxın müddət ərzində prezident, parlament və bələdiyyə seçkilərində iştirak edib. Bütün seçkilər mütəşəkkil, aşkarlıq şəraitində keçirilib və heç bir qanun pozuntusu qeydə alınmayıb.**



Seçki məntəqəsinin sədri söhbət əsnasında dedi ki, bütün işlərimizi qanun çərçivəsində həyata keçiririk. Seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlər sistemli şəkildə və keyfiyyətlə icra edirik. Metodiki yardım göstərilməsi və fəaliyyətimizin səmərəliliyinin artırılması məqsədilə MSK tərəfindən hazırlanmış seçki prosesinin bütün mərhələlərini əhatə edən təqvim planı komissiyalara təqdim edilib. Artıq MSK tərəfindən hazırlanmış "Yaddaş kitabçaları" da komissiya üzvlərinə təqdim edilib. Belə metodiki vəsaitlər seçki zamanı qarşıya çıxan problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Sədr dedi ki, bu seçkilərdə də intensiv şəkildə fərqli istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı maarifləndirmə kampaniyasına start verilib. MSK tərəfindən keçirilən treninqlər komissiya üzvlərinin bilik, bacarıq və peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsində mühüm rol oynayır.

Maarifləndirmə proqramlarında seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü istisna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə aydın və müfəssəl məlumat əldə edirik.

Növbədənkənar parlament seçkilərində 5 saylı seçki məntəqəsində 962 seçicinin səs verəcəyini bildirən Ç.Fətullayev seçici siyahılarının hazırlandığını bildirdi: "Artıq seçici siyahılarının asılacağı yerləri də müəyyənləşdirmişik. Bundan əlavə, məntəqənin yaxınlığında namizədliyi qeydə alınanların təbliğat-təşviqatının aparılması üçün dəmir lövhələr quraşdırılıb. Seçki keçiriləcək otaqda komissiya üzvləri və müşahidəçilər üçün müvafiq yerlər ayrılıb. Müşahidəçilərin seçkini sərbəst izləmələri üçün hər cür şərait yaradılıb. Seçkilərin aşkarlıq şəraitində keçirilməsində müşahidəçilərin rolu böyükdür. Seçicilər 8 kabinədə səs verəcəklər. Artıq kabinələr də quraşdırılaraq hazır vəziyyətə gətirilib. Daşınan və daşınmaz qutular seçki məntəqəsində saxlanılır. Hələlik evdə səs verəcək seçici müraciət etməyiblər. Hamı seçki məntəqəsinə gəlib şəxsən səs vermək arzusundadır.

Ç.Fətullayev bu seçkilərdə də barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi üsulundan istifadə olunacağını bildirdi. Dedi ki, əvvəlki seçkilərdə məntəqəmizdə müşahidə aparan beynəlxalq müşahidəçilər bu üsulu çox bəyəndilər. Bununla yanaşı, məntəqədə veb-kamera da quraşdırılıb. Həmin gün elektrik enerjisinin fasiləsiz təminatı üçün məntəqə yaxınlığında generator da qoyulub. Qalan bir işimiz isə bildirişlərin paylanılmasıdır. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, səsvermə gününə 7 gün qalanadək səsvermənin keçirilmə tarixi, vaxtı və yeri (ünvanı) barədə bildirişlərin seçicilərə paylanması yekunlaşmalıdır. Artıq səs verəcək ən yaşlılar da müəyyənləşib. Bizim 92 yaşdan yuxarı 4 seçicimiz var".

Məntəqə sədrinin köməyi ilə həmin seçicilərdən biri ilə əlaqə saxladıq. Firuzə Teymurova dedi ki, onun 92 yaşı var. Bu vaxta qədər keçirilən seçkilərdə həmişə seçki məntəqəsinə gedib və şəxsən səs verib: "Bu seçkilərdə də özüm səs verəcəyəm. Seçki məntəqəsindən mənimlə bir neçə dəfə əlaqə saxlayıb deyiblər ki, əgər hər hansı bir narahatlığınız varsa, evinizə seçki qutusu gətirək və səsvermədə iştirak et. Razı olmamışam. Demişəm ki, özüm seçki məntəqəsinə gələcəyəm və istədiyim namizədə səs verəcəyəm. İndi seçki ərəfəsində heç kimlə qabaqcadan sövdələşmə aparmırlar və kiməsə səsvermə zamanı təzyiq göstərmirlər. Bu şəraiti yaradan dövlətimizə, onun başçısına minnətdarlığımı bildirirəm".

# Ödənişsiz seçkiqabağı təşviqat aparılacaq media subyektləri müəyyənləşib



Mərkəzi Seçki Komissiyasından bildirilib ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:

- İctimai Televiziya və Radio Yayımları Şirkəti;
- "Azərbaycan" qəzeti;
- "Xalq qəzeti";
- "Respublika" qəzeti;
- "Bakinski raboçi" qəzeti.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək (2024-cü il iyulun 28-dək) dərc etməlidirlər.

# "Freedom House" ciddiliyini itirib

## Son hesabatı dünya KİV-ləri tirajlamayıb

**"Freedom House" hüquq müdafiə təşkilatı "Keçid dövründə olan ölkələrdə demokratiya" adlı hesabatını təqdim edib. İyulun 12-də açıqlanan hesabatda Mərkəzi Avropa və Mərkəzi Asiya regionlarının 29 ölkəsi üzrə demokratiyanın vəziyyəti qiymətləndirilib. Bu sırada qurum Cənubi Qafqaz ölkələrinə də yer ayırıb və ənənəsinə sadiq qalaraq, Azərbaycanın adını Ermənistanla Gürcüstandan geri sıralarda göstərməyə çalışıb. Ermənistan və Gürcüstanı "avtoritazmdən demokratiyaya keçid edən hibrid rejimli" ölkələr, Azərbaycanı isə "sabit avtoritar rejimli" ölkə adlandırıb.**



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

Təşkilat internet azadlığının səviyyəsini qiymətləndirən digər hesabatında da Azərbaycanı neqativ tonda təsvir edib. "Azadlığın qlobal statusu" kateqoriyasında Azərbaycan qeyri-azad ölkə, Ermənistan və Gürcüstan isə qismən azad ölkələr adlandırılıb. Bir sözlə, "Freedom House" son 13 il ərzində yayımladığı hesabatlarda Cənubi Qafqaz ölkələri barədə nə yazıbsa, eynisini 2024-cü ilin 12 iyul açıqlamasında təkrarlayıb. 2013, 2015, 2018-ci illərdə üzə çıxan qərəz, konyuktura 2024-cü il hesabatının da ruhuna hopub. Tendensiya, üslub, hətta, cümlələr də dəyişməyib. Təqvimi yeniləməklə köhnə mətnləri yenidən dərc ediblər. Halbuki, qeyd edilən dövr ərzində regionda ciddi dəyişikliklər baş verib.

Freedom House

2018-ci ildə Ermənistanda hakimiyyətdə olan rejim xalq tərəfindən devrilib. Səbəb kimi devrilən rejimin mürtəce xarakteri, qeyri-insani rəftarları göstərilib. Ermənistan xalqı Serj Sarkisyana despot, avtoritar rejim başçısı, Paşinyana isə demokrat deyir. "Freedom House" isə bu ikisinin arasında bərabərlik işarəsi qoyur. Həm Sarkisyan rejimi dövründə olan Ermənistanı, həm də Paşinyanın idarəçiliyində olan Ermənistanı "demokratik, azad ölkə" adlandırır. Paradoksal yanaşma hesabatlardakı qeyri-obyektivliyi biruzə verir. Bir sözlə, ermənipərəst mövqe "Freedom House" təşkilatını gülünc, qeyri-ciddi duruma salır.

Belə qeyri-ciddiliyin nəticəsidir ki, dünyanın heç bir məşhur kütləvi informasiya vasitəsi təşkilatın son hesabatını tirajlamayıb, ona yer ayırmayıb. İndiki hesabat geniş diqqət qazanmayıb. İş o yerə çatıb ki, heç ABŞ-də fəaliyyət göstərən trans-milli KİV-lər də "Freedom House"un 12 iyul hesabatına diqqət ayırmayıb. İnternet axtarış sistemlərindən görünür ki, nə "Azadlıq" radiosu, nə "Amerikanın səsi", nə də digər transmilli KİV-lər 12 iyul hesabatına istinad etməyib. Xatırladaq ki, adı çəkilən KİV-lər adəti üzrə Azərbaycana aid neqativ tonlu informasiyaları zərrəbbinlə axtarırlar. Ən elementar faktları qeydə alıb kontekstdən çıxarıb, ölkəmizə qarşı qara piar elementinə çevirirlər. Amma bu dəfə vəziyyətin qeyri-ciddiliyini fərq ediblər. Gülünc günə düşməmək üçün, "Freedom House" təşkilatının son hesabatını tirajlamayıblar.

12 iyul hesabatını yeganə olaraq Ermənistan KİV-ləri ciddiyə alıblar. News.am portalı "Freedom House" təşkilatına söykənərək, Azərbaycan haqqında qara fikir formalaşdırmaq istəyib (https://news.am/rus/news/833861.html#google_vignette).

"Freedom House" 15 gün öncə – iyulun 1-də ictimailəşdirdiyi "Dağlıq Qarabağda niyə ermənilər yoxdur?" başlıqlı "xüsusi hesabatında" da eyni davranışı sərgiləmişdi. Həmin hesabata baxanda aydın görünürdü ki, "Freedom House" öz hesabatlarını erməni şəbəkəsinin təkcə sifarişi ilə deyil, həm də ermənilərin birbaşa iştirakı ilə hazırlayıb. Hesabatda Azərbaycanı təmsil edən heç bir quruma istinad edilmir.

"Freedom House" Azərbaycana qarşı həmişə qərəzli olub. Hətta Qarabağ torpaqları işğal altında olan vaxtlarda da Ermənistanın mövqeyindən çıxış edib. İşğalın bitməsindən sonra isə Azərbaycana qarşı bəyanatlarını sərtləşdirib və intensivləşdirib. Təkcə 2024-cü ilin 1-ci yarısında Qarabağ üzrə iki hesabat yayıb və hər birində faktları saxtalaşdırıb.

# Siyasi partiyalar seçkilərə fəal hazırlaşırlar

**2024-cü il sentyabrın 1-ə təyin edilmiş növbədənkənar parlament seçkilərində iştirak edəcək siyasi partiyaların sayı gündən-günə artır. Artıq 22 siyasi partiya seçkilərdə iştirak etmək istəyini bildirib və səlahiyyətli nümayəndələrinin adlarını Mərkəzi Seçki Komissiyasına təqdim edib. Seçkilərə qatılmaq istəyən siyasi partiya nümayəndələrinin sayı 168 nəfərə çatıb. Ümumiyyətlə, hansı siyasi partiya neçə namizədlə növbədənkənar parlament seçkilərinə qatılacaq?**



Bu sualla bir neçə siyasi partiya funksionerlərinə müraciət etdik.

**Demokratik İslahatlar Partiyası** Azərbaycan Respublikası Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə iştirakla bağlı qərar qəbul edib və seçkiyə 17 namizədlə qatılır. Partiyanın sədri Asim Mollazadə namizədliyini 22 saylı Nəsimi–Yasamal Seçki Dairəsindən irəli sürüb. DİP artıq seçkilərdə iştirakla bağlı müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim edib.

**Ümid Partiyasının sədr müavini Taleh Əliyev** partiyanın seçki hazırlığının çoxdan başlandığını qeyd edib: "Partiyamız seçkidə75 namizədlə iştirak etmək niyyətindədir. Bu namizədlərdən artıq 60 nəfərin dairəsi müəyyən olunub, qalan 15 nəfərin də dairəsinin müəyyən olunması işləri aparılır. Ola bilər ki, seçkidə dəstəkləyəcəyimiz müstəqil namizədlər olsun, amma heç bir partiya ilə ittifaq məsələsi yoxdur. Sədrimiz İqbal Ağazadə 36 saylı Xətai–Suraxanı seçki dairəsindən namizəd olacaq".

**Respublikaçı Alternativ Partiyasının (REAL) icra katibi Natiq Cəfərlinin** dediyinə görə, partiya ötən prezident seçkisindən başlayaraq, seçki qərargahı yaradıb. Hələ ki namizədlərin sayı 13 olsa da, proses yekunlaşmadığı üçün bu rəqəm arta bilər. Sayın az olmasının əsas səbəbi maddiyyatdır, çünki seçki böyük resurs tələb edən bir prosesdir.

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev** növbədənkənar parlament seçkilərinə fəal hazırlaşdıqlarını deyib. Onun sözlərinə görə, rəhbərlik etdiyi partiya parlament seçkilərində iştirak edəcək: "Hələlik namizədlərin sayı ilə bağlı qərar yoxdur, amma iş gedir".

**Azad Vətən Partiyasının sədri Akif Nağı** bu seçkilərin xüsusi önəmi olduğunu vurğulayıb. Ona görə də seçkidə iştirak etməyi qərara alıblar. O, namizədlərin müəyyənləşdirilməsi barədə yaxın günlərdə qərar qəbul ediləcəyini bildirib.

**Sərdar Cəlaloğlu, Azərbaycan Demokrat Partiyasının sədri:** " Seçkilərdə maksimum namizədlə iştirak edəcəyik".

**Azərbaycan Xalq Partiyasının sədr müavini Qiyas Sadıqov** təşkilatın seçkidə iştirak edəcəyini bildirib. Onun sözlərinə görə, AXP-nin seçkilərdə təxminən 20 namizədinin olacağı planlaşdırılıb. Partiyanın sədri Pənah Hüseyn də seçkilərə namizəd kimi qatılacaq.

**Yeni Zaman Partiyasının sədri Musa Ağayev** seçkilərə yaxşı hazırlaşdıqlarını, partiyanın ən azı 50 dairədən namizədlə iştirak edəciyini deyib.

**Ədalət, Hüquq, Demokratiya Partiyasından** verilən məlumata görə, təşkilat növbədənkənar parlament seçkilərində fəal iştirak edəcək. Artıq hazırlıq prosesinə başlanılıb: "Qanunvericiliklə ən azı 60 dairədən namizəd olmalıdır ki, ödənişsiz efir vaxtından istifadə edək. ƏHD partiyasının buna potensial imkanı var. Bu baxımdan növbədənkənar parlament seçkilərində çoxlu namizədlə iştirak edəcəyik.

**Ağ Partiyanın başqanı Tural Abbaslı** seçkidə maksimum mandat hədəflədiklərini deyib. Partiya sədri vurğulayıb ki, artıq 80-dən yuxarı namizəd müəyyən olunub: "Biz çalışırıq ki, 125 dairəni də əhatə edək. Artıq təşkilat şöbəsi mümkün namizədlər və onların imza toplayan komandası, təbliğat-təşviqat, piar işləri ilə bağlı addımlar atır. Seçki qərargahımız aktiv şəkildə fəaliyyətdədir. Özüm isə 25 saylı dairədən namizəd olacağam".

**Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev** rəhbərlik etdiyi partiyanın bu seçkilərdə təxminən 35-40 nəfərlə iştirak edəcəyini bildirib. O, ötən dəfəki kimi, İmişli rayonundan namizəd olacağını bildirib.

**VHP-nin sədr müavini Samir Əsədlinin** sözlərinə görə, Vətəndaş Həmrəyliyi Partiyası növbədənkənar parlament seçkilərində iştirak edəcək: "Hələ ki 50 dairədə namizədlərimiz dəqiqləşib, amma ümumən 80 namizədlə iştirak etməyi düşünürük".

***Hazırladı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Şuşa Bəyannaməsindən Qarabağ Bəyannaməsinədək

> *Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının... qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir. Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir.*
>
> ***İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti***

**III məqalə**




### Cənubi Qafqazda 3 fərqli geosiyasi nümunə

Şuşa Bəyannaməsinə Cənubi Qafqazın bugünkü geosiyasi gerçəklikləri prizmasında baxanda aydın olur ki, Azərbaycan regionun ən şanslı dövlətidir. 2020-ci ildən başlayan proseslər 2024-cü ildə regionun hər üç dövlətini fərqli geosiyasi statusa gətirib çıxarmışdır. Ermənistan bir addım belə irəli gedə bilməmişdir. Onun geosiyasi anlamda yerində saydığını demək də çətindir. Çünki bu ölkə geosiyasi aspektdə tam bir qeyri-müəyyənlik içindədir. Rusiyanı prioritet müttəfiq kimi itirmək üzrədir. ABŞ və Avropanın tam olaraq etibarını və güvənini qazana bilməmişdir. İranla münasibətlərdə aydın olmayan çox sayda məsələ qalmaqdadır. Digər tərəfdən, Qərbin Gürcüstana münasibəti göstərir ki, eyni qaydada istənilən an İrəvanı kənara qoya bilər. Çünki Qərb üçün öz maraqlarından başqa dəyər yoxdur. Onların demokratiya, liberalizm, insan haqları və s. gəlişigözəl sözlərinin sərhədləri öz şəxsi maraqlarının hüdudlarını aşmır!

Belə çıxır ki, Ermənistanın geosiyasi anlamda faktiki olaraq "ayaqları yerdən üzülmüşdür" və onun real "dayaqları" yoxdur! Bu baxımdan Gürcüstanın son zamanlar Qərblə münasibətlərində özünü göstərən bir sıra məqamlar da qonşu dövləti çətin vəziyyətə salır. ABŞ, Fransa və Almaniya Tbilisiyə birbaşa yardımları dayandırmışlar və şərt qoymuşlar: mövqeyini dəyişməsən əlaqələri daha da məhdudlaşdıracağıq! Bu, birbaşa diktə və müstəqil dövlətin suverenliyinə qəsddir. Çünki Gürcüstan Aİ-nin assosiativ üzvüdür, büdcəsində bu təşkilatdan aldığı yardımlar xüsusi yer tutur. Bir sıra hüquqi imtiyazları mövcuddur. Gürcüstan Brüsselin yaratdığı güzəştli şəraitdən geniş yararlanırdı. İndi isə məlum olur ki, bütün bunların üst səviyyəsində Qərbin geosiyasi maraqları dayanırmış! Yəni, real olaraq demokratik və liberal münasibətdən söhbət gedə bilməz. Bu, artıq rəsmi Tbilisini və Cənubi Qafqazı bütövlükdə region kimi düşündürməlidir.

Bunların fonunda Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin möhtəşəmliyi və səmərəliliyi aydın görünür. İlham Əliyev heç bir dövlətlə münasibətləri bərabərhüquqluluq və qarşılıqlı faydalılıq prinsiplərindən kənarda qurmadı. Türkiyə ilə ən yaxın əlaqələri qurmaqda davam etdi. Bunun fonunda Rusiya və İranla əlaqələri konkret faydalılıq müstəvisində inkişaf etdirdi. Avropa İttifaqı ilə münasibətləri Azərbaycanın milli maraqları və müstəqilliyi və təhlükəsizliyi çərçivəsindən kənarda qurmadı. Brüsselin assosiativ üzvlükdə israrına baxmayaraq, İlham Əliyev özünün təkliflər paketini hazırladı və masa üzərinə qoydu. Yenə də rəsmi Brüsselin bütün manevrlərinə və təzyiq cəhdlərinə baxmayaraq Bakı mövqeyindən çəkilmədi. Nəticədə hazırda Aİ Azərbaycanla bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq kursunu reallaşdırmağa çalışır. Azərbaycan həyata keçirdiyi müstəqil siyasətlə faktiki olaraq Qərbin enerji təhlükəsizliyinin onların milli təhlükəsizliyinin təmini kontekstində reallaşmasında ciddi rol oynayır

Bundan əlavə, Şuşa Bəyannaməsinə əsaslanan strateji müttəfiqlik nümunəsi özünü tam olaraq doğrultmuşdur. Azərbaycan Cənubi Qafqazın güclü lideri və onun təhlükəsizliyinin əsas təminatçısıdır. Və məsələ Cənubi Qafqazın siyasi və coğrafi sərhədləri ilə məhdudlaşmır. Şuşa Bəyannaməsinin, öncəki məqalədə vurğuladığımız kimi, inteqrativ potensialı regional miqyası aşaraq multiregional məkanda dövlətlərin əməkdaşlığına təkan verə bilir. Bu sənədin Cənubi Qafqazda perspektivli geosiyasi konfiqurasiyanın yaranmasında konstruktiv rolu üzərində bir qədər geniş dayanaq.

### Şuşa Bəyannaməsi – regional inteqrasiya modeli

Yuxarıdakı qısa müqayisələr göstərir ki, Cənubi Qafqazda Azərbaycandan başqa digər yerli dövlətlər yenidən geosiyasi seçim qarşısında qalmışlar. Onların indiyə qədər seçdikləri kurs zamanın sınaqlarına tab gətirə bilmədi. Deməli, gec və ya tez Ermənistan və Gürcüstan yeni geosiyasi seçim etməlidirlər. Mövcud nümunələr sırasında onlar üçün ən uyğun olanı Şuşa Bəyannaməsində yer almış əməkdaşlıq və müttəfiqlik müddəalarının fəlsəfəsidir. Bunu İrəvan və Tbilisinin real qəbul edib-etməyəcəyi haqqında proqnoz verə bilmərik. Lakin bizim üçün bir məqam aydındır: heç bir dövlətə müstəqilliyinin tam təmin olunmadığı əməkdaşlıq və müttəfiqlik modeli sona qədər faydalı ola bilməz!

Əgər Ermənistan və Gürcüstan əməkdaşlığın strateji seçimində bu meyara əməl etməsələr və hər hansı süni faktorlara görə hərəkət etsələr, müəyyən zaman kəsimindən sonra təkrar geosiyasi və siyasi böhrana düşəcəklər. Onların düzgün seçim etməsi üçün regionun özündə nümunə vardır. Bu, Şuşa Bəyannaməsinin şərtləridir. Həmin şərtlər strateji müttəfiqlikdə müstəqilliyi və bərabərhüquqluğu tam olaraq qorumağa təminat verir.

Sənədlə bağlı vurğulanan özəlliklər əsasında bir sıra fəlsəfi ümumiləşdirmələr apara bilərik. Şuşa Bəyannaməsi iki dost və qardaş dövlətin müstəqilliyə qarşılıqlı hörmət əsasında strateji müttəfiqliyinin faydalı nümunəsidir.

Bu sənəd bir daha sübut edir ki, ən yaxın dövlətlər belə uğurlu və real müttəfiqliyə münasibətləri yalnız beynəlxalq hüquq normaları və səmimiyyət əsasında qurduqda nail ola bilərlər.

Şuşa Bəyannaməsinin birləşdirici ruhunun təməlində "bir millət, iki dövlət" kəlamı dayanır. Bu, əsrlərdir ki, Azərbaycan dövlətçiliyinin axtarışında olduğu müstəqil dövlət quruculuğu konsepsiyasının manifesti, siyasi-ideoloji və mənəvi-mədəni arxitektonikasının ana faktorudur.

Şuşa Bəyannaməsi iki qardaş dövlətin strateji müttəfiqliyi həyata keçirmək kontekstində müasir mərhələdə ciddi sınağıdır. Təcrübə və əldə edilən nəticələr göstərir ki, Azərbaycan və Türkiyə bu mərhələdə sınağı böyük uğurla keçmişlər!

Şuşa Bəyannaməsi strateji sənəd olaraq, özündə faydalı əməkdaşlığın böyük potensialını daşıyır və bu, geniş geosiyasi məkanda faydalı nümunə ola bilər!

Sonuncu qənaət kontekstində bir özəlliyi də vurğulamaq istərdik. Şuşa Bəyannaməsinin geosiyasi aspektdə vacib özəlliklərindən biri ondan ibarətdir ki, başqa alternativ müttəfiqlik nümunələri üçün də ideya qaynağı rolunu oynaya bilər. Yəni Şuşa Bəyannaməsinin özü yeni strateji müttəfiqlik sənədlərinin hazırlanmasını stimullaşdıra bilər.

Bu, olduqca əhəmiyyətli keyfiyyətdir. Konkret olaraq, Şuşa Bəyannaməsi regional miqyasda strateji müttəfiqliyi regionun maraqlarına uyğun motivasiya edə bilər.

Əlbəttə, bu, hələlik nəzəri-konseptual qənaətdir. Onun praktiki reallaşması digər şərtləri də tələb edir. Lakin yeni bir nümunə artıq meydana gəlmişdir və Cənubi Qafqaz dövlətləri real vəziyyətə həmin yenilik kontekstində baxa bilərlər. Biz, Qarabağ Bəyannaməsini nəzərdə tuturuq.

### Qarabağ Bəyannaməsi – strateji müttəfiqlik nümunəsi

"Qarabağ Bəyannaməsi" 2024-cü il iyulun 6-da Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşünün yekununda qəbul edilmişdir. Əgər Şuşa Bəyannaməsini iki türk dövləti – Azərbaycan və Türkiyə imzalamışdırsa, Qarabağ Bəyannaməsini Azərbaycan, Qazaxstan, Qırğız, Özbəkistan respublikalarının prezidentləri və Türkiyə Respublikasının vitse-prezidenti imzalamışlar. Şuşa Bəyannaməsi iki türk dövlətinin birliyinə, strateji müttəfiqlik səviyyəsində əlaqələrinə xidmət edirdisə, bundan cəmi 4 il sonra imzalanan Qarabağ Bəyannaməsi 5 türk dövlətinin birliyinə xidmət edir. Bu mənada Qarabağ Bəyannaməsinin türk dünyasının inteqrasiyasının yeni mərhələsinin əsasını qoyduğu haqqında nəticə çıxarmaq olar. Şübhəsiz, Qarabağ Bəyannaməsi türk dövlətlərinin münasibətlərini yeni səviyyəyə yüksəldir ki, bunun da stimulverici faktoru Şuşa Bəyannaməsidir.

Qarabağ Bəyannaməsinin vacibliyinin sənəddə əsaslandırılması çox maraqlıdır. Onları aşağıdakı kimi təsnif etmək olar:

- "Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edərək";
- "Türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolunun ən yüksək dəyərini vurğulayaraq";
- "Bəşəriyyət tarixində Türk xalqlarının siyasi, iqtisadi və bəşəri nailiyyətlərinə əsaslanaraq";
- 2023-cü ilin noyabrında keçirilmiş Astana Zirvə görüşünün "TDT-nin gələcək transformasiyasında və Türk dünyasının inteqrasiyası səylərində, eləcə də onların xalqlarının birlik və rifahının gücləndirilməsində növbəti mühüm mərhələ" olduğunu qəbul edərək;
- "TDT-nin yaradılmasına dair Naxçıvan sazişinə uyğun olaraq, Dövlət Başçıları Şurasının DBŞ müntəzəm görüşləri ilə yanaşı, ildə bir dəfə DBŞ-nin qeyri-rəsmi görüşlərinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təklifini alqışlayaraq";
- "Geniş Türk dünyasından olan xalqların bir araya gətirilməsində Şuşa şəhərinin mənəvi əhəmiyyətini qəbul edərək";
- "Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Şuşada keçirilən görüşün Türk xalqlarının birliyinin, onların sülhə və ədalətə sadiqliyinin bariz təzahürü olduğunu bəyan edərək";
- "Yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün öz ata-baba yurdlarına qayıdışı üçün şərait yaradacaq genişmiqyaslı minatəmizləmə fəaliyyəti və humanitar minasızlaşdırma səyləri də daxil olmaqla, işğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpası səylərində Azərbaycan hökuməti və xalqı ilə həmrəyliklərini ifadə edərək;
- "Türk dövlətləri arasında sabit və çoxşaxəli əlaqələrin inkişafına, o cümlədən, iqlim fəaliyyəti vasitəsilə sağlam planetin qorunmasına yönəlmiş birgə səylərlə davamlı gələcəyin mümkün olduğunu təsdiq edərək;
- "Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışlarının türk dövlətlərinin vahid güc kimi çıxış etməsini tələb etdiyini və qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı mütəmadi məsləhətləşmələrin aparılmasının zəruriliyini etiraf edərək" Qarabağ Bəyannaməsi imzalanmışdır.

Göründüyü kimi, Türk dövlətləri 10 ciddi arqumentə əsaslanaraq, miltiregional mahiyyətli çox mühüm konseptual sənəd hazırlamışlar. Bu, Şuşa Bəyannaməsinin Türk dövlətləri arasında əlaqələrin qurulması baxımından oynadığı rolu daha aydın dərk etmək baxımından da mühüm hadisədir. Yuxarıdakı arqumentlərin məzmununa həmin prizmadan yanaşdıqda görürük ki, Qarabağ Bəyannaməsini mümkün edən başlıca faktorlardan biri məhz Şuşa Bəyannaməsinin uğurları olmuşdur. Qarabağ Bəyannaməsində açıq ifadə edilir ki, Şuşa Bəyyanaməsindən başlayan daha geniş tərkibdə yol davam etdirilir. Əldə olunan nəticələr üzərində türk dövlətləri strateji əməkdaşlığı yeni səviyyəyə yüksəltməyə hazırdırlar. Bu baxımdan əgər Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyənin əlaqələrinin yol xəritəsidirsə, Qarabağ Bəyannaməsi bütövlükdə türk dövlətlərinin əlaqələrinin yol göstərənidir. Bu məqam Qarabağ Bəyannaməsinə özəl substantiv və funksional keyfiyyətlər gətirir.

(ardı var)

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Millerin kompromis və çətin qərarlar məntiqi

(əvvəli 1-ci səhifədə)



Bəli, ABŞ Dövlət Departamentinin sözçüsü, digər həmkarları kimi bildirir ki, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanması üzrə danışıqlarda əhəmiyyətli proqres var. Miller keçirdiyi ənənəvi brifinqdə onu da deyib ki, Vaşinqton tərəfləri sülh sazişi bağlamağa çağırmaqda davam edir.

"İki ölkə arasında sülh sazişi onlar üçün, eləcə də regionda sülh, sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyət daşıyacaq". Cənab Miller bunu da bəyan edib. Yenə də təkrarçılıq olsa da, ABŞ rəsmisinin nə isə deməli olduğu reallığını nəzərə alaq. Yəni, onu başa düşək. Millerin tərəflərin razılığa gəlməsinin mümkünlüyü ilə bağlı dilə gətirdiklərini də həmçinin.

Ancaq departament sözçüsünün bildirdiklərində son vaxtlar ABŞ rəsmiləri tərəfindən səsləndirilməyən bir məsələ də var. Bu, onu deməyə əsas verir ki, sülh danışıqları heç də rəvan müstəvidə getmir. Belə ki, Miller Bakı ilə İrəvanın razılığa gəlməsinin mümkünlüyünə inandığını açıqlasa da, bunun üçün hər iki tərəfdən çətin qərarlar və ciddi kompromislər tələb olunduğunu vurğulayır.

Mövcud durumda belə nəticəyə gəlmək mümkündür ki, Millerin təbirincə desək, tərəflər Vaşinqtonda keçirilmiş son danışıqlar zamanı irəliləyiş əldə etsələr də, bu irəliləyişin detalları qeyri-müəyyəndir. Elə sözçü də həmin detalları açıqlamır. Daha doğrusu, açıqlamaqdan çəkinir, yaxud imtina edir. Deməli, irəliləyişlərin məzmunu kompromislərin və çətin hesab edilən qərarların mahiyyətindən daha az əhəmiyyətlidir. Belə qənaətə gəlirik ki, obrazlı desək, neçə vaxtdır haqqında söz açılan arı bal arısı deyilmiş.

Bəs kompromis və qərarların çətinliyi necə aradan qalxacaq? M.Miller mövcud istiqamətdə də detalları açıqlamır. Yalnız onu bildirir ki, Vaşinqton yekun razılaşmanın əldə olunmasına və fikir ayrılıqlarının aradan qaldırılmasına töhfə verməkdə davam edəcək. Onun vurğuladığı başlıca məqamlardan biri isə budur: "Razılaşma hələ əldə olunmayıb və biz razılaşma əldə olunanadək dayanmayacağıq".

***

Göründüyü kimi, ortada konkret heç nə yoxdur. Yaxud da açıqlanası olan yenilik istisnadır. Bu, o deməkdir ki, qeyri-müəyyənlik mühiti ömrünü sürdürməkdədir. Halbuki, Birləşmiş Ştatlar rəsmilərinin əvvəlki açıqlamalarındakı nikbinlik tonu Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin ən yaxın zamanda imzalanacağını söyləməyə əsas verirdi. O zaman belə düşünə bilərik ki, Millerin açıqlaması yalnız ABŞ-nin vasitəçilik missiyasından geri durmayacağına, mövcud istiqamətdə inad göstərəcəyinə dair mesajdan başqa bir şey deyil. Bu mesajdan daha çox vasitəçilik adı ilə qlobal rəqabət müstəvisindən qaçmamaq əzmi nəzərə çarpır, nəinki gerçək sülh uğrunda mübarizə aparmaq istəyi. Çünki sülhün olmasını istəyən tərəf indiyədək təfərrüatları açıqlayar, əslində, kimin, hansı tərəfin prosesdən yayındığını bəyan edərdi.

Yeri gəlmişkən, sülhdən yayınan tərəf Ermənistan və bu ölkənin rəhbərliyidir. Nəzərə alaq ki, rəsmi İrəvan və ona yaxın dairələr barış gündəminə yeni element daxil etmək istəyirlər. Söhbət Qarabağ ermənilərinin bölgəyə qayıtmaları məsələsindən gedir. Məlumdur ki, məsələ zaman-zaman manipulyasiya predmetinə çevrilib. Manipulyasiyanın isə Ermənistana yeni reallıqlar formalaşdırmaq, vaxt udmaq üçün lazım olduğu heç kəsə sirr deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Bakı Şəhər Prokurorluğu birinci yarımildə

**Dünən Bakı şəhərinin prokurorluq orqanlarının bu ilin birinci yarısında cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**



Qeyd olunub ki, bu ilin birinci yarısında Bakının prokurorluq və daxili işlər orqanları üzrə cəmi 8011 cinayət hadisəsi qeydiyyata alınıb ki, onların 88,6 faizinin açılması təmin olunub.

Əməliyyat müşavirəsində Bakı şəhərinin tabe rayon prokurorları hesabat məruzə ilə çıxış edərək görülən işlərin vəziyyəti barədə məlumat verib, yol verilmiş nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyini bildiriblər.

Müşavirəyə yekun vuran Bakı şəhər prokuroru Elşən Abbasov şəhər prokurorluğunun kollektivinin bundan sonra da cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsini təmin edəcəklərinə əminliyini bildirib.

***XQ***

# Sabitlik və tərəqqi Azərbaycana yüksək sərmayə cəlbediciliyi qazandırıb

(əvvəli 1-ci səhifədə)

Azərbaycanda iqtisadi artımın getdikcə yüksəlməsi, qeyri-neft sektorunda nəzərə çarpan müsbət tendensiyalar, eləcə də biznesin davamlı olaraq şəffaflaşması da investisiya qoyuluşuna ciddi töhfə verir. Bu məsələdə həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin təmin edilməsi, cəmiyyətdə vergi mədəniyyətinin formalaşması əsaslı rol oynayır. Yeri gəlmişkən, bu gün əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, şəffaf münasibətlərin qurulması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımlar da xüsusi diqqət çəkir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına əsasən, Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna son 5 ildə cəlb olunan birbaşa xarici investisiyaların həcmi 5 milyard dolları ötüb.

Məlumatda, həmçinin qeyd edilir ki, COVID-19 pandemiyasının yumşalmasından sonra birbaşa xarici investisiyalar yenidən artmağa başlayıb. Belə ki, 2020-ci ildə birbaşa xarici investisiyalar 606 milyon dollar təşkil edibsə, 2021-ci ildə bu rəqəm 790 milyon dollara, ötən il isə 1,8 milyard dollara qədər yüksəlib. Qeyri-neft sektoruna yatırılmış birbaşa xarici investisiyaların ümumi



birbaşa xarici investisiyalarda payı isə 21,2 faiz təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadənin sözlərinə görə, cari ilin I rübü ərzində Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz artaraq 1,5 milyard ABŞ dolları səviyyəsinə çatıb. Habelə cari ilin ilk rübündə birbaşa xarici investisiyaların ÜDM-ə nisbəti 8,8 faiz, qeyri-neft-qaz birbaşa xarici investisiyaların qeyri-neft-qaz ÜDM-ə nisbəti isə 1,7 faiz təşkil edib. Buna baxmayaraq qeyri-rezidentlərin yerli iqtisadiyyata yatırdığı birbaşa xarici investisiyalar üzrə xalis maliyyə öhdəlikləri 358,7 milyon ABŞ dolları azalıb.

Birinci rübdə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyanın 12,4 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. Bu dövrdə ölkəmizə ən çox birbaşa xarici investisiyanı Böyük Krallıq (443,2 milyon ABŞ dolları), Türkiyə (261,4 milyon ABŞ dolları) və BƏƏ (190,7 milyon ABŞ dolları) yatırıb.

İqtisad elmləri doktoru, professor Fikrət Yusifov bildirir ki, Azərbaycan dünya miqyasında investisiya üçün cəlbedici ölkə statusunu gündən-günə gücləndirir. Respublikada yaradılan siyasi və iqtisadi sabitlik, əlverişli biznes və investisiya mühiti xarici investorlara istənilən layihəni uğurla həyata keçirilməyə təminat verir. Bu isə istənilən investor üçün əsas şərtlərdir.

Azərbaycanın xarici investisiyalar üçün nə qədər cəlbedici bir ölkəyə çevrildiyini xarakterizə edə biləcək ən yaxşı göstəricilərdən biri son 20 ildə iqtisadiyyata qoyulan xarici investisiyaların həcminə dair göstəricilərdir. 2024-cü ilin hesabatına görə, Azərbaycanın "Top-7"yə daxil olması da bunun bariz ifadəsidir.

Böyük Britaniyanın "Financial Times" qrupunun "FDI Intelligence" nəşrində 2023-cü ildə ən çox birbaşa xarici investisiyalar yatırılan şəhərlərin "TOP 100" reytinqi açıqlanıb və Bakının reytinq sıralamasında 3-cü yerdə qərarlaşdığı bildirilib. İqtisadiyyat Nazirliyi sözügedən nəşrin dərc etdiyi məqaləyə əsaslanaraq Azərbaycana birbaşa xarici investisiya yatırılması ilə bağlı ötən il əldə edilmiş razılaşmaları 2017-ci ildən sonrakı dövrdə ən irihəcmli layihələr kimi diqqətə çatdırıb və bir neçə mühüm logistika layihələri ilə yanaşı, 2023-cü ildə Bakıya təkcə Macarıstanın "Hell Group" şirkəti tərəfindən 211 milyon dollar sərmayə yatırılacağına dair sazişin imzalanmasını bunun bariz ifadəsi kimi dəyərləndirib.

Qeyd edək ki, ötən il Bakıda iqtisadiyyat naziri Mikayıl Cabbarov və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun iştirakı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) və Macarıstanın "Hell Group" şirkəti arasında Birgə İştirak Müqaviləsi imzalanıb. Sənəddə Ələt Azad İqtisadi Zonasında illik istehsal gücü 700 milyon ədəd alüminium içki qutusu təşkil edəcək yeni zavodun tikintisi nəzərdə tutulub. İstehsal olunacaq məhsulların daxili tələbatı ödəməklə yanaşı, Mərkəzi Asiya ölkələrinə də ixrac edilməsi qərara alınıb. Layihədə 300-dən çox iş yerinin yaradılması da planlaşdırılıb.

Ötən il Sumqayıt Kimya Sənaye Parkında Prezident İlham Əliyevin iştirakı ilə "Azərbaycan Vanhong Ceramics Co" MMC-nin keramik plitələr istehsalı müəssisəsinin açılışı olub. 100 faiz Çin kapitallı müəssisəyə 50 milyon dollar məbləğində investisiya yatırılıb və 500-ə yaxın yeni iş yeri yaradılıb.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, ölkəmizdə yaradılan əlverişli biznes və investisiya mühiti bir çox xarici investorları ölkəmizə cəlb edir, iqtisadiyyatın bir çox sahələrində önəmli layihələr icra olunur, yeni iş yerləri yaradılır. Son bir neçə ildir ki, ölkəmizdə milli iqtisadiyyatın investisiya cəlbediciliyi baxımından uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır.

# Elektrik enerjisi 15 faiz artıb

**Cari ilin birinci yarısında ölkə üzrə elektrik enerjisi istehsalı 13 milyard 557 milyon kilovat-saat olub. Ötən ay isə respublikada elektrik enerjisi istehsalı 15 faiz artaraq 2 milyard 326 milyon kilovat-saata yüksəlib.**

Energetika Nazirliyinin məlumatına əsasən, ötən altı ay ərzində elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 11 milyard 525 milyon kilovat-saat, su elektrik stansiyalarında (SES) 1 milyard 581,1 milyon kilovat-saat, digər mənbələr üzrə isə 451,3 milyon kilovat-saat təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında (KES) 29,7 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES) 286,6 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 135 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Beləliklə, yaşıl enerji mənbələri üzrə elektrik istehsalı ötən ilin müvafiq dövrünə (1081,7 milyon kilovat-saat) nisbətən iki dəfəyə yaxın artaraq 2032,4 milyon kilovat-saat olub.

Bu müddətdə elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 11 milyard 918,9 milyon kilovat-saat (İES-lərdə 10 milyard 452,1 milyon kilovat-saat, SES-lərdə 1 milyard 466,8 milyon kilovat-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 224 milyon kilovat-saat (İES-lərdə 88 milyon kilovat-saat, SES-lərdə 105,5 milyon kilovat-saat, Günəş ES-də 30,5 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 21,9 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 392,6 milyon kilovat-saat təşkil edib.



Qeyd edək ki, cari ilin iyun ayında respublika üzrə elektrik enerjisinin istehsalı 15 faiz artaraq 2 milyard 326 milyon kilovat-saat olub.



# 2 mindən çox yerli minik avtomobili

**2024-cü ilin yanvar–iyun aylarında Azərbaycanda 2032 ədəd minik, 276 ədəd isə yük avtomobili istehsal edilib.**

Dövlət Statistika Komitəsinin məlumatında qeyd edilir ki, birinci yarımildə ötən ilin müvafiq dövrü ilə müqayisədə minik avtomobili istehsalı 16,5 faiz, yük avtomobili istehsalı isə 68,3 faiz artıb.

Qeyd edək ki, cari ilin iyul ayının 1-i vəziyyətinə hazır məhsul ehtiyatı müvafiq olaraq 516 ədəd minik, 65 ədəd isə yük avtomobili təşkil edib.

# Dünya Bankı ilə yeni tərəfdaşlıq strategiyası

**Dünya Bankının Direktorlar Şurası oktyabrın sonunda Azərbaycanla 2025–2029-cu illər üçün nəzərdə tutulmuş yeni tərəfdaşlıq strategiyasını təsdiq etməyi planlaşdırır. Bu barədə Bankın Bakı ofisindən məlumat verilib. Bildirilib ki, Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Rolanda Praysın rəhbərlik etdiyi nümayəndə heyətinin iyulun 15-də Bakıya səfəri zamanı çərçivə sənədi ilə bağlı məsləhətləşmələr davam etdirilib.**

İqtisadiyyat Nazirliyinin məlumatına görə, nazir Mikayıl Cabbarov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycanın Dünya Bankı ilə uğurla əməkdaşlıq etdiyi, ölkəmizdə bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələrinin yüksək qiymətləndirildiyi bildirilib. Tədbirdə, həmçinin Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində bərpaolunan enerji və "yaşıl" iqtisadiyyata keçid, eləcə də Azərbaycanın icrasında maraqlı olduğu digər layihələr diqqətə çatdırılıb.

Görüş barədə "X" sosial şəbəkəsindəki hesabında məlumat verən iqtisadiyyat naziri M. Cabbarov bildirib ki, Dünya Bankı Qrupu ilə Azərbaycan üzrə 2025–2029-cu illəri əhatə edən yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədinin hazırlanması istiqamətində müzakirələr aparılıb. "Tərəfdaşlıq sənədinin hazırlanması və ölkəmizin iqtisadi inkişafı istiqamətində həyata keçiriləcək layihələr barədə fikir mübadiləsi apardıq",– deyə nazir paylaşımında qeyd edib.

Bankın Bakı ofisinin məlumatında qeyd olunduğu kimi, 2015-ci ildə təsdiq edilmiş əvvəlki tərəfdaşlıq strategiyası Azərbaycanın qarşısında duran ciddi çağırışlar nəzərə alınmaqla hazırlanmışdı. O, yeni artım modelinə keçid zamanı dövlət maliyyə idarəçiliyi və iqtisadiyyatın şaxələndirilməsi sahəsində daha yaxşı göstəricilərə nail olmaq üçün ölkənin dəstəklənməsinə, eləcə də ölkənin xarici şoklara qarşı dayanıqlığının gücləndirilməsinə fokuslanmışdı. "Amma 2020-ci ildən etibarən dünya COVID-19 pandemiyasının yaratdığı yeni iqtisadi təlatümlə üzləşib. Karbohidrogenlərə qlobal tələbatın azalması neftin qiymətinin kəskin




aşağı düşməsinə səbəb olub və bu, neft sektorundan ciddi şəkildə asılı olaraq qalan Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərib. Bu çətinliklərə baxmayaraq, Azərbaycan dəyişikliklər etməyə əzmini nümayiş etdirir. Ölkə "yaşıl" iqtisadiyyata keçid və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına iddialı məqsədlər qoyur", – deyə bankın Bakı ofisinin məlumatında bildirilib.

Qeyd olunub ki, Dünya Bankının Azərbaycanla yeni tərəfdaşlıq strategiyası bu məqsədləri dəstəkləmək üçün hazırlanıb. Bu istiqamətdə iki əsas layihə müəyyənləşdirilib. Bunlardan birincisi Azərbaycanın məşğulluğa dəstək proqramının genişləndirilməsidir. Dünya Bankı ölkəmizdə iş yerlərinin yaradılmasını təşviq etmək və işçi qüvvəsinin bacarıqlarını artırmaq məqsədi daşıyan bu proqrama 150 milyon ABŞ dolları məbləğində əlavə maliyyə ayırmağı planlaşdırır. İkinci layihə isə bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsini (AZURE) nəzərdə tutur. İlkin hesablamalara görə, bank AZURE layihəsi çərçivəsində külək və günəş enerjisinin inkişafı vasitəsilə "yaşıl" iqtisadiyyata keçidi hədəfləyən Azərbaycana dəstək olmaq üçün 250 milyon ABŞ dolları ayırmağı planlaşdırır. Yeni strategiyanın əhatə edəcəyi digər perspektivli əməkdaşlıq sahələrinin müzakirələri isə hələlik davam edir.

Yeri gəlmişkən, Azərbaycan hökuməti ilə karbon qazı emissiyalarının kvotalarının monetizasiyası imkanlarını müzakirə etməyi planlaşdıran Dünya Bankı AZURE layihəsi çərçivəsində birinci mərhələdə Neftçala rayonunda (315 meqavatlıq) və Biləsuvarda (445 meqavatlıqlıq) ümumi gücü 760 meqavat olan günəş elektrik stansiyalarının elektrik şəbəkəsinə inteqrasiyası üçün ötürücü infrastrukturu maliyyələşdirəcək.

Qeyd edək ki, Azərbaycan 1992-ci ildən Dünya Bankının üzvüdür. Bu günə kimi Azərbaycanda Bankın kredit vəsaitləri hesabına ümumi məbləği 4,4 milyard ABŞ dolları olan 54 layihə həyata keçirilib. Ötən müddətdə bank tərəfindən ölkəmizdə reallaşdırılan 115-dən artıq texniki yardım və bir çox istiqamətlərdə qrant layihələrinə, təxminən, 30 milyon dollardan artıq vəsait ayrılıb. Azərbaycanın uğurlu tərəfdaşlarından olan Dünya Bankının maliyyə dəstəyi ilə nəqliyyat, sosial, su təchizatı və irriqasiya, kənd təsərrüfatı, ətraf mühit, ədliyyə və digər sahələrdə həyata keçirilən layihələr ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verib.

# Neft-qaz sektorunda 0,6 faiz artım



***Ümumi daxili məhsul (ÜDM) neft-qaz sektorunda cari ilin yanvar–iyun aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,6 faiz artaraq, 20 milyard 722,4 milyon manat olub.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz artıb.

Məlumatda, həmçinin neft-qaz sektoruna bu il 3 milyard manata yaxın vəsait yönəldildiyi, cari ilin ilk yarısında ölkənin neft-qaz sektoruna yatırılmış investisiyaların həcminin 4,5 faiz artdığı vurğulanıb.

Qeyd edək ki, 2023-cü ilin müvafiq dövründə sözügedən göstərici 2 milyard 809 milyon manat səviyyəsində olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Ermənistanın ekoloji terroru davam edir

**Bu gün region ölkələri üçün ciddi təhlükə mənbələrindən biri də Ermənistan ərazisində yerləşən “Metsamor” Atom Elektrik Stansiyasıdır. İstismar müddətini çoxdan başa vurmuş, amma bu ölkə hökumətinin müxtəlif yollarla fəaliyyətini uzatmağa çalışdığı adıçəkilən infrastruktur hələ də potensial nüvə qəzası mənbəyi olaraq qalır. Türkiyənin İğdır vilayətindən 16 kilometr, Naxçıvan Muxtar Respublikasının sərhədlərindən isə 50 kilometr məsafədə yerləşən “Metsamor”, hətta qəzasız vəziyyətdə belə illərdir ki, yaxın bölgələrə öz mənfi təsirini göstərir.**



“Yeşil İğdır” və “Güvən” qəzetlərinin baş redaktorları Cabbar Şıktaş və İsmayıl Aras, TRT və Anadolu xəbər agentliklərinin İğdır təmsilçisi Bülənt Mavzer, həmçinin Dəmirören Xəbər Agentliyinin İğdır üzrə müxbiri Özkan Aydın ilə söhbətimiz də bu məsələ ilə bağlıdır.

***– “Metsamor” AES illərdir ki, regionumuzu ciddi təhdid altında saxlayır. Bu təhlükə ilə əlaqədar nə deyə bilərsiniz?***

**–İsmayıl Aras:** “Metsamor” Atom Elektrik Stansiyası, həqiqətən, bölgə üçün təhlükə mənbəyidir. Yaxşı xatırlayıram, Ukraynada Çernobıl qəzasından sonra bu cür stansiyaların hansı təhlükə daşıdığı hər kəsə məlum oldu. Stansiya nəinki Türkiyə, eləcə də Ermənistanın özü üçün ciddi risk sayılır. Amma təəssüflər olsun ki, bu təhlükə haqqında mətbuatda dəfələrlə çıxış etsək də, indiyədək əməli iş görülməyib.

**– Cabbar Şıktaş:** 2004-cü ildə istismar müddəti bitmiş bu stansiyanın fəaliyyəti əvvəlcə 2016-cı, sonra isə 2026-cı ilə qədər uzadıldı. Təsəvvür edin, istismar müddəti 20 il bundan əvvəl başa çatmış bir stansiya hazırda işini davam etdirir. Hətta bu gedişatla “Metsamor” növbəti illərdə də fəaliyyətini davam etdirəcək. Çünki Ermənistan hökumətinin bununla bağlı heç bir layihəsi yoxdur. Erməni rəsmiləri mətbuata açıqlamalarında bildirirlər ki, stansiyada vaxtaşırı yenilənmələr aparılır, müəyyən təmir işləri görülür. Amma nə dərəcədə doğrudur, bu, artıq əlavə suallar yaradır.

**– Bülənt Mavzer:** Təmsil olunduğum qurum tərəfindən “Metsamor”la bağlı vəziyyət hər zaman diqqətdə saxlanılıb. Burada bir məsələni də qeyd etmək istərdim. Rəsmi məlumatlara görə, stansiya 1976-cı ildə tikiləndə 8 ballıq zəlzələyə hesablanıb, amma bu obyekt 9,5 ballıq seysmik zonada yerləşir. Bu faktın özü təhlükənin daha ciddiliyindən xəbər verir. Digər tərəfdən, “Metsamor” Atom Elektrik Stansiyasının reaktorunu soyutmaq üçün Arazın suyundan istifadə olunur. Sonra isə həmin maye tullantıları yenidən çaya axıdılaraq çirklənməyə məruz qalır və beləliklə, qonşu ölkələrə öz mənfi təsirini göstərir.

***– Araz çayından hazırda Naxçıvanda, eləcə də qonşu İran İslam Respublikasında suvarma suyu kimi geniş istifadə olunur.***

**– İsmayıl Aras:** İğdırda Arazdan suvarma suyu kimi istifadə olunmur, amma stansiyanın zərərli təsirləri aqrar sahəyə öz mənfi təsirini göstərir. Yaxşı yadımdadır, əvvəllər İğdırın meyvə-tərəvəzi tamam fərqli idi. Məsələn, bizdə yetişdirilən xiyar və yaxud pomidor həm görünüşünə, həm də dadı və qoxusuna görə seçilirdi. 70–80-ci illərlə indiki dövrün müqayisəsi də bu fərqi aydın göstərir. Digər tərəfdən, son vaxtlar səhiyyə qurumlarının da açıqladığı kimi, İğdırda xərçəng xəstələrinin sayı xeyli artıb. Bu faktın da “Metsamor”la əlaqəli olduğu artıq öz təsdiqini tapıb.

**– Özkan Aydın:** Son illərdə İğdırda hamilə qadınlar arasında rast gəlinən xəstəliklər, doğum zamanı qarşılaşılan fəsadlar çox artıb. Elə mal-heyvan arasında da ikibaşlı və ya üçayaqlı heyvanların doğulmasına tez-tez rast gəlinir. Bu da, əsasən, havanın çirklənməsindən, daha konkret ifadə etsəm, “Metsamor”dan qaynaqlanır.

***– Bir müddət bundan əvvəl belə bir məlumata rast gəlmişdim ki, İğdır Türkiyədə ən çirkli havası olan şəhərdir.***

**– Özkan Aydın:** Bəli, elədir. Biz tez-tez İğdırın üzərində dumanlı havanı müşahidə edirik. Belə vəziyyət qışda da olur, yayda da. İğdırın coğrafi mövqeyi elədir ki, ətraf dağlarla əhatəli olduğundan külək əsməsə, o sis, duman dağılmır. Təbii ki, bu da öz təsirini göstərir.

**– İsmayıl Aras:** Türkiyə Atom Enerjisi Qurumu da bu vəziyyəti diqqətdə saxlayır. Bununla bağlı gündəlik ölçmələr aparılır, amma stansiyanın fəaliyyəti dayandırılmasa, bu cür vəziyyət davam edəcək.

Düşünürəm ki, media olaraq həm Türkiyə, həm də Azərbaycan daim bu mövzunu diqqətdə saxlamalıdır. Hətta bu ilin mart ayında bizim vətəndaş cəmiyyətinin üzvləri Brüsseldə keçirilən Nüvə Enerjisi Sammitinin həmsədrlərinə də bununla bağlı məktub yazaraq stansiyanın fəaliyyətinin dayandırılması üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırmağa çağırmışdı. Bu mənada, imkan yaranan kimi, istənilən platformadan istifadə etmək zəruridir. Eyni zamanda, bu il Azərbaycanda keçiriləcək COP29 tədbirindən də ictimaiyyətin gözləntiləri böyükdür.

**–Cabbar Şıktaş:** Bəli, mümkün beynəlxalq platformalardan istifadə etməliyik. Çünki “Metsamor”, hər şeydən əvvəl, Ermənistanın özünün daxilində bir bombadır. Hesab edirəm ki, Türkiyə və Azərbaycan bu ölkə ilə sülhə nail olduqdan sonra Ermənistanın enerji probleminin həll olunmasına yol açıla və stansiyanın fəaliyyəti dərhal dayandırıla bilər.

***Söhbəti qələmə aldı:***
***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***




# BP-nin Azərbaycanda “yaşıl” addımları

**(əvvəli 1-ci səhifədə)**

Yaxın vaxtlarda Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda tikintisinə başlanılacaq “Şəfəq” layihəsi BP ilə SOCAR arasında “yaşıl enerji” əməkdaşlığının bariz nümunəsidir. Xatırladaq ki, “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsinin operatoru “Lighsource BP” şirkətidir. Artıq məlum olduğu kimi, BP 2017-ci ildən əməkdaşlıq etdiyi “Lightsource” şirkətinin səhmlərini alıb. Sözügedən şirkət günəş elektrik stansiyalarının quraşdırılması sahəsində yüksək beynəlxalq təcrübəyə malikdir. Belə ki, şirkət seçilmiş sahələrdə günəş panellərinin və əlaqədar qurğuların quraşdırılması üçün müstəsna hüquqla BP şirkətinin adından işlənməni həyata keçirən tərəf qismində çıxış edir.

Hazırda Cəbrayılda 240 meqavatlıq günəş elektrik stansiyası layihəsinin işlənilmə mərhələsinə başlanıldığını bildirən BP-nin regional vitse-prezidenti B. Aslanbəyli deyib ki, kommersiya baxımından bu layihə Səngəçal terminalında əməliyyatların dekarbonizasiyası və bu terminalın elektrikləşdirilməsi ilə dəstəklənir. Onun sözlərinə görə, Cəbrayılda 240 meqavat gücündə günəş elektrik stansiyasının inşası layihəsinin icrası BP-nin regiondakı əməliyyatlarında ümumi emissiyaları 11 faiz azaldacaq. “Bu, dərin inteqrasiya olunmuş layihədir və iqtisadi cəhətdən əsaslandırılıb, elektrik enerjisi hasil etmək üçün Səngəçal terminalında qazdan istifadəni azaltmağa imkan verəcək”, – deyə B. Aslanbəyli bildirib. BP-nin öz əməliyyatlarını daha da təhlükəsiz və səmərəli etmək üçün bütün imkanlardan istifadə etdiyini diqqətə çatdıran regioanal vitse-prezident deyib ki, hazırda şirkət istixana qazlarının emissiyalarını azaltmaq və mövcud neft və qaz hasilatını dekarbonizasiyasının yollarını axtarır. Onun sözlərinə görə, BP-nin nəzərdə tutduğu tədbirlər nəticəsində ayrılan qaz həcmi ixrac olunacaq ki, bu da Azərbaycan qazının xarici alıcılara tədarükünün etibarlılığını daha da artıracaq.

“Şəfəq” Günəş Elektrik Stansiyasını Azərbaycanın enerji keçidini dəstəkləyən mühüm layihə kimi dəyərləndirən regional vitse-prezident bu çoxplanlı layihənin icrasının texniki və kommersiya məsələləri üzrə Energetika Nazirliyi və “Azərenerji” ilə əməkdaşlıqda mühüm irəliləyiş əldə edildiyini vurğulayıb. Bəxtiyar Aslanbəyli müsahibəsində bu ilin sonunda layihə bağlı yekun investisiya qərarının qəbul olunacağını bildirib.

B.Aslanbəyli bu yaxında BP-nin regiondakı bütün obyektlərində metan emissiyalarını ölçmək üçün texnologiyalar və həllər tətbiq etdiyini diqqətə çatdıraraq deyib ki, bu, ölçmələri təkmilləşdirməyə, daha yaxşı qiymətləndirməyə, yeni baza göstəricilərimizə dair anlayışı artırmağa və son nəticədə şirkətin bütün dünyada əməliyyatlar üzrə hədəfi olan qlobal əməliyyatlarında metan emissiyalarının 50 faiz azaldılmasına töhfə verməyə imkan verəcək.

O, müsahibəsində, həmçinin BP-nin ölkəmizdə “yaşıl” keçid sahəsində gördüyü digər işlərdən bəhs edib. Deyib ki, şirkətin Azərbaycandakı “yaşıl” tədbirlərinin digər mühüm bir nümunəsi “Şahdəniz Alfa” hasilat platformasında dizel generatorlarının (elektrik enerjisi istehsal edən) qonşu “Şahdəniz Bravo” platformasından gələcək elektrik enerjisi ilə əvəzlənməsi layihəsidir. Onun dediyinə görə, bu, təkcə “Şahdəniz Alfa”da karbon qazı emissiyalarını azaltmağa kömək etməyəcək, həm də “Şahdəniz” qaz-kondensat layihəsində əməliyyatların məhsuldarlığını artıracaq. B.Aslanbəyli xatırladıb ki, BP və SOCAR “Metan Rəhbər Prinsipləri”, eləcə də ikitərəfli anlaşma memorandumunu imzalayıb və bununla “Qlobal Metan Vədi” təşəbbüsü kimi səylərə töhfə verirlər.

“Bu təşəbbüs ayrı-ayrı ölkələr səviyyəsində metan emissiyalarının azaldılmasını sürətləndirməyə yönəlib. SOCAR və bp birlikdə çalışmaqla, Azərbaycanda metan emissiyalarının azaldılması üzrə ölkənin enerji sektorunun tələblərinə cavab verən konkret yol xəritəsinin hazırlanması ilə bağlı səyləri dəstəkləmək üçün əsas maraqlı tərəflərin, tərəfdaş şirkətlərin tədqiqat institutlarınn ekspertləri və hökumət nümayəndələrinin tədbirlərini inteqrasiya etmək niyyətindədir. İnanırıq ki, birlikdə sənaye, cəmiyyət və dövlətin metan emissiyaları ilə mübarizə aparmasına kömək etməklə buradakı imkanlardan daha səmərəli istifadə edə biləcəyik”, – deyə B.Aslanbəyli bildirib.

Yeri gəlmişkən, dünyanın prioritet elan etdiyi “yaşıl keçid” platformasına mühüm töhfələr verməyi hədəfləyən BP şirkəti Xəzəryanı ölkələr içərisində ilk dəfə məhz Azərbaycanı seçməsi olduqca təqdirəlayiqdir. 2025-ci ilin sonlarında istismara verilməsi nəzərdə tutulan “Şəfəq” Günəş Elektrik Stansiyası postsovet məkanında ilk ən böyük günəş elektrik qurğusu kimi tarixə düşəcək. Məlum olduğu kimi, “Şəfəq” Günəş Elektrik Stansiyasının istehsal gücü 240 meqavat olacaq ki, bu da kifayət qədər böyük rəqəmdir. Eyni zamanda, Xəzərin coğrafi məkanında ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı tam olaraq “yaşıl enerji” hesabına ödəniləcək.

Qeyd edək ki, “Şəfəq” layihəsi Cəbrayıl şəhərindən 5-10 kilometr məsafədə, təxminən, 802 hektarlıq ərazini əhatə edəcək. Ümumilikdə isə, layihəyə 240 MVtAC gücündəki PV günəş elektrik stansiyasının layihələndirməsi, təchizatı, mühəndislik, tikinti, quraşdırma, sınaq, istismara buraxma işləri və istismar mərhələsi daxildir. Layihə çərçivəsində tikinti işləri, təxminən, 18 ayadək davam edəcək.

***M.YAQUBZADƏ***
***XQ***

# BMT-nin COP29 layihələri

**BMT-nin Avropa İqtisadi Komissiyası və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionları Qərbi Balkanlarda, Mərkəzi Asiyada, Qafqazda, Şərqi və Cənub–Şərqi Avropada qabaqcıl mərhələdə yaxşı işlənmiş “təmiz enerji” layihələrinin icrasına başlayıblar.**

Bu barədə BMT-nin Avropa İqtisadi Komissiyasının rəsmi saytındakı məlumatda bildirilib. Qeyd edilib ki, layihələr qarşıdan gələn maliyyə forumunda dövlət və özəl investorlara təqdim olunacaq və Bakıda keçiriləcək COP29-da nümayiş etdiriləcək. Qurumun seçilmiş layihələri əvvəlcə 2024-cü il oktyabrın 9-da Hamburqda keçiriləcək III Avropa Regional Maliyyə Forumunda təqdim olunacaq. Yeri gəlmişkən, forumun məqsədi dayanıqlı enerjiyə keçidə xüsusi diqqət yetirməklə dövlət və özəl sektorun maliyyəçiləri və layihə tərtibatçıları arasında əməkdaşlığı gücləndirməkdir. Bu tədbirlə sənaye liderləri, regional inkişaf üzrə maliyyə institutları, kommersiya kreditorları, suveren fondları, özəl kapital təminatçıları və xeyriyyəçilər bir araya gələcək.

Maliyyəni enerji keçidində mühüm amil kimi dəyərləndirən məqalə müəllifi yazır ki, kapitalı səfərbər etmək üçün çoxsaylı iqlim layihələrinin təşviqi vacibdir: “Bunun üçün siyasətçilər, maliyyəçilər, layihə tərtibatçıları və texniki yardım təminatçıları arasında daha səmərəli ekosistemlər və əməkdaşlıq lazımdır. Bu geniş regiondan COP28 üçün seçilmiş prioritet layihələrin 4-ü, orta hesabla, təxminən, 55 faiz qismən maliyyələşib, – deyə məlumatda vurğulanıb.

***XQ***

# Ölkəmizin “günəş” rekordu



***Bu ilin birinci yarısında Azərbaycanda 13 milyon 557,4 kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, hesabat dövründə külək elektrik stansiyalarında 29,7 milyon kilovat-saat, günəş elektrik stansiyalarında isə 286,6 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.***

Beləliklə, “yaşıl enerji” mənbələri üzrə elektrik istehsalı ötən ilin müvafiq dövrünə (1 milyon 81,7 kilovat-saat) nisbətən iki dəfəyə yaxın artaraq 2 milyon 32,4 milyon kilovat-saata çatıb. Günəş enerjisi istehsalını isə ölkəmiz üçün rekord göstərici hesab etmək olar. Belə ki, yanvar–iyun aylarında günəş enerjisi istehsalının həcmi əvvəlki 32,3 milyon kilovat-saat göstəricini 9 dəfə üstələyib.

Məsələyə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov sosial şəbəkə hesabında qeyd edib ki, COP29-a evsahibliyi edəcək Azərbaycanda bərpaolunan mənbələrdən enerji istehsalının artırılması regionda “yaşıl enerji” zonasının genişlənməsinə dəstəkdir. Bunu ölkəmizin iqlim dəyişikliyi və ətraf mühitin qorunması, eləcə də yaşıl iqtisadiyyatın güclənməsi ilə bağlı qlobal və regional hədəflərə töhfəsi kimi dəyərləndirən deputat bildirib ki, inkişaf etmiş ölkələrdə icmalar, eləcə də ailələr bərpaolunan enerji mənbələrdən, o cümlədən külək və günəş şüalarından enerji istehsal edərək həm öz istehlaklarını ödəyirlər, həm də artıq hissəni dövlətə satırlar”. “Oxşar praktikanın Azərbaycanda tətbiq olunması elektrik enerjisi istehsalını artırmaqla yanaşı, vətəndaşların daha ucuz enerji almasına gətirib çıxara bilər. Bu, enerji istehsalı və satışına yeni yanaşmanın tətbiqinə imkan yaratmaqla yanaşı, enerji xəclərini azalda bilər. Bunun üçün icma əsaslı inteqrasiya olunmuş infrastrukturun formalaşdırılması da vacibdir, – deyə V. Bayramov paylaşımında qeyd edib.

***XQ***



# Qlobal gündəmin əsas mövzusu

***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) hazırda qlobal gündəmin əsas mövzusudur. Bunu Bakıda jurnalistlərə açıqlamasında Rusiya Prezidentinin beynəlxalq təşkilatlarla əlaqələr üzrə xüsusi nümayəndəsi Boris Titov deyib.***

“Biz ilk fikir mübadiləsi apardıq. Azərbaycanda COP29-a hazırlıqları, bu gün nə qədər böyük işlərin görüldüyünü öyrəndik. Bunu təsəvvür etmək belə çətindir”, – deyə o bildirib. B.Titov, həmçinin bu gündəliyin hazırlanmasında sahibkarların və onların iqlim dəyişikliyi ilə mübarizə problemlərinin həllində iştirakının vacibliyini qeyd edib.

***XQ***

# Azərbaycan mediasının məlumat bazası yaradılır

**Azərbaycan Mətbuat Şurası "Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması" təşəbbüsünü uğurla gerçəkləşdirir. Dünən şurada layihə ilə bağlı keçirilən ilk təqdimatda görülmüş işlər geniş müzakirə edildi, rəy və təkliflər dinlənildi.**



AMŞ sədri Rəşad Məcid layihə barədə ətraflı məlumat verərək bildirdi ki, Azərbaycan media məkanı barədə aydın təsəvvür formalaşdıran məlumat bazası yaratmaq ideyası şuranın 2022-ci ildən nəzərdə tutduğu iş planının mühüm tərkib hissəsidir. O, belə bir bazanın vacibliyinə duyulan ehtiyacı vurğulayaraq qeyd etdi ki, bu istiqamətdə fəaliyyət mərhələli və davamlıdır. Çünki ölkəmizin media mühiti daim inkişafda, yeni seqmentlər qazanmaqdadır.

Müzakirə edilən layihənin uğurlu və faydalı olacağına əminliyini söyləyən şura sədri dedi: "Mediamızdakı dinamika istər-istəməz palitra zənginliyi yaradır. Bu zənginlik isə ortaya institusional baxış qoyulmasını ehtiyaca çevirir. Elə bir baxış ki, ona yalnız Azərbaycanda deyil, dünyada da müraciət edilsin. Bu, informasiya cəbhəsində mübarizəmiz baxımından da önəmlidir".

Rəşad Məcid belə bir önəmli layihənin gerçəkləşdirilməsinə göstərdiyi maliyyə köməyinə görə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə, təşkilati dəstəyə görə isə Medianın İnkişafı Agentliyinə və Jurnalistlərin Həmkarlar İttifaqına təşəkkürünü bildirdi.

Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli layihənin əhəmiyyətini vurğulayaraq bu fəaliyyətin KİV məkanındakı pərakəndəliyin aradan qalxmasına töhfə verəcəyini, beynəlxalq miqyasda Azərbaycan jurnalistikası ilə bağlı üstün təəssürat formalaşdıracağını ifadə etdi. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin layihələrin idarə olunması üzrə meneceri Natiq Lahıcov isə təmsil etdiyi qurumun Mətbuat Şurasının bu faydalı təşəbbüsü ilə bağlı müvafiq dəyərləndirilmələr apardığını və layihənin icrası üçün vəsait ayırdığını diqqətə çatdırdı.



Mətbuat Şurasının icraçı katibi Əvəz Rüstəmov toplantı iştirakçılarını qurumun "presscouncil.az" saytında yaradılmış "Azərbaycanın media landşaftı" barədə məlumatlandırdı. O, həmin kateqoriyada "Azərbaycanda informasiya dövriyyəsini tənzimləyən qanunlar", "İnformasiyanın etik standartlarını müəyyən edən yerli və beynəlxalq sənədlər", "Azərbaycanın aparıcı media subyektləri", "Azərbaycan mediasından gender balansı", "I və II Qarabağ müharibəsi dövründə Azərbaycan mediası" yarımbölmələrinin yer aldığını söylədi.

AMŞ İdarə Heyətinin üzvü, "Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması" layihəsinin eksperti Müşfiq Ələsgərli qeyd etdi ki, ölkəmizin media məkanı barədə bütün informasiyaların vahid mənbədə toplanılması bu sahə barədə detallı və obyektiv bilgi əldə etmək imkanını hədəf alıb. Bu məqsədlə də "Presscouncil.az" internet səhifəsində yaradılmış "Azərbaycanın media landşaftı" kateqoriyasında ölkəmizdə informasiya dövriyyəsini tənzimləyən bütün qanunla, etik standartları müəyyən edən milli və beynəlxalq sənədlər, fəaliyyətdə olan media subyektlərinin adları və keçid linkləri yerləşdirilib.

Layihə çərçivəsində görüləcək işlər məlumat bazasını daha da zənginləşdirəcək. Məlumat bazasının Azərbaycan dili ilə yanaşı, ingilis dilində də fəaliyyəti təmin ediləcək.

AMŞ İdarə Heyətinin üzvü, BDU jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmli layihənin KİV məkanımızın məlumat bazasını zənginləşdirəcəyinə və ondan istifadəni asanlaşdıracağına xidmət etdiyini vurğuladı, media ictimaiyyəti adından bu ideyanı dəstəkləyənlərə minnətdarlığını bildirdi və icraçılara uğur arzuladı.

Toplantıda iştirakçıların sualları cavablandırıldı, təklifləri qeydə alındı.

***Tahir AYDINOĞLU***
***XQ***

# Nə gözəl yaraşır Göygölə ceyran!



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilən "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə reintroduksiyası" proqramının gənclərin maarifləndirilməsi və inkişafı istiqaməti üzrə "Ceyranları qoruyaq!" adlı növbəti ekoloji yay düşərgəsi iyulun 10–12-də Göygöl rayonunda keçirilib. IDEA İctimai Birliyi, Gənclər Fondu, Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən düşərgəyə Göygöl, Gəncə və Samux rayonlarından ümumilikdə 30 məktəbli qoşulub.**

Yay düşərgəsinin keçirilməsində əsas məqsəd ceyranların reintroduksiya edildiyi ərazilərdə, o cümlədən onların məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gənc nəslin maarifləndirilməsidir.

Düşərgə zamanı məktəblilər ceyranların həyat tərzi, ölkəmizdə məskunlaşma tarixi, yayıldığı ərazilər və təbiətdəki rolu, nadir canlı növünün populyasiyasının bərpası üzrə görülən işlər və uğurlar haqda təqdimat, təlim və ekskursiyalarda iştirak edib, o cümlədən müxtəlif ekoloji müsabiqələrə və ətraf mühitlə bağlı əyləncəli bilik yarışlarına qoşulublar. Sonda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı 2010-cu ildə Heydər Əliyev Fondu tərəfindən başladılıb və hazırda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində uğurla icra olunmaqdadır. Bu illər ərzində 370 baş ceyran Şirvan Milli Parkından Azərbaycan və Gürcüstandakı tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya edilib, onların daimi monitorinqi və mühafizə işləri həyata keçirilməkdədir.

***XQ***

# AMEA-da yubiley hazırlığına başlanıb

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə hazırlıq məqsədilə qurumun prezidenti, akademik İsa Həbibbəylinin sədrliyi ilə müşavirə keçirilib.**



Akademik İsa Həbibbəyli yubileyin yüksək səviyyədə qeyd olunması məqsədilə AMEA Rəyasət Heyətinin qərarı ilə komissiya yaradıldığını və tədbirlər planı müəyyən edildiyini söyləyib. Diqqətə çatdırılıb ki, 2025-ci ilin mart ayında AMEA-nın yaradılmasının 80 ili tamam olacaq və bu illər ərzində akademiya Azərbaycan xalqının elmi və ictimai fikir tarixində, sosial-mədəni tərəqqisində, ölkəmizin inkişafında mühüm rol oynayıb.

Toplantıda yubiley münasibətilə "Elm" nəşriyyatında çap olunacaq biblioqrafiya və monoqrafiyaların, xüsusilə, akademik və müxbir üzvlər, fəxri və xarici üzvlər, görkəmli elm xadimləri haqqında ensiklopedik məlumatların yer alacağı "Simalar" kitabının, tanıtma broşürlərinin, yubiley tədbirlərində iştirakı nəzərdə tutulan xarici ölkələrin akademik qurumlarının ilkin siyahısının hazırlanması barədə müzakirələr aparılıb.

Akademiyanın tarixindən bəhs edən sənədli filmin və elektron təqdimatların hazırlanması vəziyyəti ilə tanış olan AMEA rəhbəri yubileylə bağlı bir sıra zəruri tədbirlərin yüksək səviyyədə təşkili barədə müvafiq tövsiyələrini çatdırıb. Akademik İsa Həbibbəyli AMEA-nın 80 illik yubileyi ilə bağlı Rəyasət Heyəti aparatının binasında yaradılmış "Akademiya muzeyi"nə də baxış keçirib, muzeyin eksponatlarla zənginləşdirilməsi, eləcə də zəruri avadanlıqlarla təchiz olunması barədə tapşırıq verib.

***Qabil YUSİFOĞLU***
***XQ***



# Yeni jurnalistika dərsliyi

**Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə jurnalistika ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulan "Media və uşaq hüquqları" adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib.**




Komitənin sədri Bahar Muradova müsəlman Şərqində ilk müstəqil cümhuriyyət quran bir ölkənin qabaqcıl ideyaları, demokratik ənənələri, hüquqları, gender bərabərliyini həm qanunlarda, həm də yaşam tərzində formalaşdıran bir xalqın öz milli mətbuatını yaradaraq örnək olduğunu bildirib.

Azərbaycançılıq və müstəqillik ideyasını siyasi konsepsiyaya çevirən ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışan komitə sədri Prezident İlham Əliyevin Azərbaycanı nəinki region və regiondan uzaqda yerləşən, köməyə ehtiyacı olan toplumlar üçün dəstəyini əsirgəməyən dövlətə çevirməyi bacardığını, hətta bir nümunə ortaya qoyduğunu vurğulayıb.

Dərs vəsaiti ilə bağlı fikirlərini bölüşən Bahar Muradova bildirib ki, komitə insan hüquqları ilə bağlı savadlılığın artırılması üçün Bakı Dövlət Universiteti ilə sıx əlaqədə işləyir. Bu gün təqdim olunan vəsait artıq birlikdə hazırlanan növbəti layihədir.

BDU-nun rektoru Elçin Babayev peşəkar medianın uşaq hüquqlarının müdafiəsində mühüm rol oynadığını vurğulayıb, mediada yetkinlik yaşına çatmayanlarla bağlı məlumatların yayılması zamanı diqqət edilməli məqamlardan danışıb.

Son 20 il ərzində Bakı Slavyan Universitetində jurnalistika ixtisaslı tələbələrin yetişdirildiyini vurğulayan BSU-nun rektoru A.Nağıyev jurnalistlərin peşə fəaliyyəti dövründə həm milli, həm də beynəlxalq konvensiyaların tələblərinin yerinə yetirilməsinin vacibliyini bildirib.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov hazırlanan dərs vəsaitinin Azərbaycan jurnalistikası üçün bir yenilik, media nümayəndələri üçün vacib bir vəsait adlandırıb. Uşaqlara diqqət və qayğının önəmindən danışan baş redaktor mətbuatda da bu həssaslığın vacibliyini vurğulayıb.

Nəşrin müəllifi fəlsəfə üzrə fəlsəfə doktoru Cabir Məmmədli kitabın məzmunu, hansı zərurətdən yaranması barədə məlumat verib, həmçinin uşaq hüquqları barədə vacib məlumatların media nümayəndələrinə çatdırmaq məqsədi daşıdığını qeyd edib.

Müzakirələrdə çıxış edən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Gənc Demokratlar İnstitutunun rəhbəri Yeganə Hacıyeva, Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədova və digərləri vəsaitin mediamız üçün önəmli olduğunu, uşaqlarla bağlı yayımlanacaq materiallara daha həssas yanaşma üçün töhfə olacağını bildiriblər.

Sonda 22 İyul – Milli Mətbuat Günü münasibətilə komitə ilə əməkdaşlıq edən media nümayəndələri mükafatlandırılıb.

# Bozdağın qoynunda yüksələn şəhər



**Mingəçevir şəhərinin ərazilərində aparılan abadlıq-quruculuq və əsaslı təmir işlərinə baxış keçirilib.**



Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovun, aparatın məsul əməkdaşlarının, kommunal xidmət müəssisələri təmsilçilərinin, media nümayəndələrinin iştirak etdiyi tədbir 20 Yanvar küçəsində 2003-cü ildə istifadəyə verilən, şəhid ailələrinin, Qarabağ müharibəsi qazilərinin, veteranların yaşadığı 4 mərtəbəli, 72 mənzilli binadan başlayıb. Binada əsaslı təmir işləri gedir. Ümumi giriş dəhlizlərində və fasadda suvaq işləri aparılır. Ümumən, göz oxşayan və qeyri-adi layihə ilə inşa olunan binanın giriş dəhlizlərinə plastik pəncərə çərçivələri, seyf qapılar qoyulacaq, ərazidə yeni işıqlandırma dayaqları quraşdırılacaq. Görüşə gələn sakinlərin problemlər barədə dedirdiklərini dinləyən şəhər rəhbəri müvafiq tapşırıqlar verərək bildirib ki, ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən, şəhidlərin ailə üzvlərinin, qazilərin, veteranların sosial-məişət məsələləri daim diqqət mərkəzində saxlanılır. Sakinlərin istəyinə uyğun olaraq, onların bütün mövcud problemləri həllini tapacaq, istirahət guşələrinə oturacaqlar qoyulacaqdır.

Mətbuat işçilərinin suallarını cavablandıran icra başçısı bildirdi ki, şəhərin bütün ərazilərində əsaslı təmir işləri davam etdirilir. Mingəçevirin gözəlləşməsi, sakinlərin rahatlığı üçün küçə və məhəllələrdə yeni layihələrə başlanılıb, nümunəvi məhəllələr yaradılır, yaşıllığın qorunması üçün suvarma işləri aparılır.

Sonra energetiklər yaşayış massivində – Fazil Əzimov küçəsindəki 31 və 33 saylı binaların vəziyyəti ilə tanışlıq olub. Bu ərazidə də əsaslı təmir işlərinə start verilib. İlk olaraq, bu məhəllədə yeni və müasir kanalizasiya borularının çəkilişi aparılır, sonra ərazidə asfaltlama işləri aparılacaq, səki daşları qoyulacaq və burada nümunəvi məhəllə yaradılacaq. Ərazidəki binaların hər birinin ümumi istifadə sahələri təmir ediləcək. Oturacaqlar qoymaq, kölgəliklər yaratmaq, işıqlanma nöqtələri quraşdırmaq, yaşıllıqlar üçün su boruları çəkmək nəzərdə tutulub. Eyni zamanda, uşaq və gənclərin əylənməsi, fiziki sağlamlığı üçün idman qurğuları quraşdırılacaq.

İlham İsmayılov ölkə Prezidenti İlham Əliyevin müvafiq tapşırıqları ilə ölkəmizin hər bir bölgəsində həyata keçirilən tikinti-quruculuq işlərinin, yeni infrastruktur layihələrinin icra olunmasının əsas məqsədinin məhz vətəndaş məmnunluğuna nail olunması olduğunu bildirib və icraçılara tapşırıqlar verib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Mingəçevir**

Sənət ulduzlarımız

# Bir çərçivədə iki brilyant



**Hər bir ölkənin musiqi mədəniyyətində elə şəxsiyyətlər var ki, adları çəkilən kimi söhbətin çox sənətkarlardan getdiyi bəlli olur. Onların sırasında Fidan və Xuraman Qasımovaların xüsusi yeri var. Sözün əsl mənasında, parlaq ulduz olan soprano bacılar dünya opera səhnələrini bəzəmələri ilə Azərbaycanın şöhrətini daha da artırıblar.**

Fidan və Xuraman Qasımovalar onlara məxsus peşəkarlığı, səhnə mədəniyyəti, yüksək mənəviyyatlari ilə seçilən əsl örnəklərdir. Bütün yaradıcılıqları boyu onlar doğma Azərbaycanı dünyada layiqincə təmsil və təbliğ edərək, mötəbər musabiqələrdə qalib gələrək, "Vətənin bir daşı" – vətəndaşı olmaları ilə fəxr ediblər.

Onların nəsli haqqında yazarkən "Ot kökü üstə bitər" atalar sözü yada düşür. XX əsrin tanınmış Azərbaycan ziyalı nəsilləri arasında onların ailəsi də ehtiramla xatırlanır. Bacılara qədər Qasımzadələrin ən parlaq nümayəndəsi onların əmisi, görkəmli memar, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, vaxtilə Politexnik İnstitutunun rektoru olmuş, Əməkdar inşaatçı Ənvər Qasımzadə idi. Gənc Fidan və Xuramanın musiqi zövqü böyük ziyalı mühitində formalaşıb. Fidan skripka üzrə təhsil alırdı, Xuraman isə jurnalist olmaq arzusunda idi. Onların qeyri-adi səsi evlərində tez-tez qonaq olan görkəmli musiqiçilərimiz – Niyazi, Qara Qarayev, Soltan Hacıbəyovun diqqətini cəlb edərək, peşəkar musiqi təhsili almalarına qətirib çıxarmışdır. Fidan məktəbdə skripka üzrə xalq artisti, professor Tahir Atakişiyev, konservatoriyada isə professor Sərvər Qəniyevin tələbəsi olub. Onun gözəl səsinin olduğunu öyrənən ADK-nın ovaxtkı rektoru, görkəmli bəstəkar Cövdət Hacıyev Fidana 2-ci kursdan skripka ilə paralel olaraq vokal ixtisası üzrə də təhsil almağa icazə verir və Fidan ixtisas üzrə A.Lvoviçdən dərs alır. Xuraman isə SSRİ xalq artisti, professor Şövkət Məmmədovanın sinfində təhsilinə başlayır, Şövkət xanım dünyasını dəyişdikdən sonra onun da ixtisas üzrə müəllimi dosent İ.A.Lvoviç olur.

Peşəkar səhnədə atdıqları ilk addımlar onlarda özlərinə inamı artırıb. Xarici ölkələrdən əvvəl Qasımova bacıları Zaqafqaziya müsabiqələrində laureat adını qazanıb, ümumittifaq müsabiqələrində qalib olaraq böyük uğurlar əldə ediblər ki, bu da istedadlı gənclərimizin vokal sənətinə axın etməsinə səbəb olub. Fidan Qasımova 1979-cu ildə İsveçrənin Cenevrə şəhərində, sonra isə İtaliyada keçirilən vokal müsabiqələrinin laureatı, Xuraman xanım isə Afinada keçirilən Mariya Kallas müsabiqəsində 1-ci yerin və Qran-Prinin sahibi, sonra isə dünyada ən nüfuzlu müsabiqələrdən biri sayılan Moskvada keçirilən VII P.İ.Çaykovski adına müsabiqənin yeganə azərbaycanlı musiqiçisi kimi qalibi olub.

Xarici səfərlərin birində – 1989-cu ildə Kubada keçirilən beynəlxalq festivalda Xuraman xanımın "Aida" operasında Aleksandr Dediklə birgə çıxışları haqqında bu ölkənin mərkəzi qəzetlərindən biri onun Azərbaycandan gəlməsi və tamaşaçıları öz möhtəşəm soprano səsi ilə valeh etməsi haqqında böyük məqalə dərc etmişdir. Belə yazılara çox rast gəlmək olar. Milanın məşhur La Skala və Moskvanın Böyük Teatr kimi qurumları Fidan və Xuraman Qasımovaları öz səhnələrində görmək arzusu ilə onları daimi işə dəvət edirdilər.

Fikrət Əmirovun Azərbaycanın musiqi aləmində böyük əks-səda doğurmuş "Sevil" operasının premyerası 1998-ci ildə Heydər Əliyevin təşəbbüsü və "Azərbaycan Mədəniyyətinin Dostları" Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə uzun müddətdən sonra yeni quruluşda baş tutmuşdur. Ümumiyyətlə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə musiqi mədəniyyətinin inkişafına diqqət daha da artırılmış və incəsənət xadimlərinə qayğı gücləndirilmişdir. Yenidən opera və balet tamaşalarının səhnəyə qoyulması prosesi onun göstərişləri sayəsində geniş vüsət almışdır. Ümummilli lider şəxsən "Sevil" operasının premyerasına baxmaq üçün Akademik Opera və Balet Teatrına təşrif buyurmuşdu. Tamaşadan sonra o, həmişəki kimi, artistlərlə görüşdü və təəssüratlarını bölüşdü. H.Əliyevin sözlərindən: "Şübhəsiz ki, əsərin əsasını musiqi təşkil edir. Orkestr də dirijorun idarəçiliyi ilə yaxşı ifa edirdi. Ancaq, sözsüz ki, səhnədə baş verənləri siz, ifaçılar təqdim etdiniz. Bu gün Xuraman Qasımova həmişəki kimi bizi heyran edərək, çox sevindirdi. Xuraman xanım bir çox rolları peşəkar səviyyədə ifa edib. Mən onları çox yüksək dəyərləndirirəm..."

Musiqi sənətinə dərindən bələd olan Heydər Əliyevin digər çıxışı isə Qasımova bacılarının Respublika sarayında 25 illik səhnə fəaliyyətləri ilə bağlı keçirilən tədbirdə olmuşdu. Sitat: "70-ci ilin ortalarından bu xanımlar Azərbaycan səhnəsindədilər. Məhz onların fəaliyyəti ilə ölkəmizdə müasir vokal məktəbinin mövcudluğu haqda danışmağa başladılar. Onların sənətindən dünya şöhrətli korifeylər – İrina Arxipova, Yelena Obraztsova, Yevqeni Nesterenko, Mariya Biyeşu, Anatoli Solovyanenko, İrina Miroşniçenko və başqaları dəfələrlə heyran qaldıqlarını söyləyirdilər. Təsadüfi deyil ki, bu gün Fidan Qasımova dünyanın 10 ən yaxşı soprano vokalçılarının siyahısına daxildir". – Bu sözləri Heydər Əliyev kimi dahi şəxsiyyətin dilindən eşitmək böyük xoşbəxtlik idi. Qasımova bacılarını Heydər Əliyevlə səmimi və qarşılıqlı hörmət hissləri bağlayırdı.

Burada digər önəmli faktı da əlavə etmək yerinə düşər. 2015-ci ildə İngiltərənin nüfuzlu Kembric Universitetin tədqiqatçılarının hazırladıqları "Dünya ensiklopediyası"nın 38-ci cildinə məhşur musiqiçilərin siyahısına Fidan Qasımovanın adı yeganə azərbaycanlı musiqi ifaçısı kimi daxil edilmişdir. Bu, əlbəttə ki, Azərbaycan musiqi mədəniyyəti üçün olduqca böyük hadisədir.

Keçən il ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda Xuraman Qasımovanın parlaq çıxışı hamıya böyük təsir bağışladı. O danışdıqca dahi şəxsiyyətin işıqlı obrazı gözümüzün önündə canlandı. Xuraman xanım H.Əliyevlə bağlı xatirələrini danışarkən iri, gözəl gözləri təbii şəkildə parıldayırdı... AzTV kanalında yayımlanan "Sən, elə bir zirvəsən!" adlı verilişdə iştirak edən Fidan Qasımova da özünəməxsus mülayim təbiəti və ecazkar təbəssümü ilə bu dahi şəxsiyyətlə bağlı xatirələrini bölüşərək onun karyerasında Heydər Əliyevin mühüm rol oynadığını vurğulamışdır. Qeyd etmək lazımdır ki, Sovet ittifaqında incəsənət xadimlərinə ən yüksək – SSRİ Xalq artisti fəxri adının verilməsi üçün İttifaq Respublikalarının I şəxsin təqdimatı mütləq lazım idi. Bu mənada, əlbəttə ki, Fidan Qasımovaya da həmin fəxri adın verilməsində Heydər Əliyevin böyük xidməti olmuşdur.

Dünya şöhrətli müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayev də bir müsahibəsində Qasımovalar haqqında çox yüksək fikirlər söyləmişdir: "Fidan və Xuraman bizim qürur yerimizdir və mən bunu məmnuniyyətlə geniş publika qarşısında demişəm. Bəli, onlar erkən yaşlarından anladılar ki, müvəffəqiyyət məsuliyyətsiz insanlara gəlmir".

Digər dünyaşöhrətli musiqiçi – BMA-nın rektoru, Xalq artisti Fərhad Bədəlbəyli xatirələrində yazır: "Azərbaycanın Qarabağ kimi qan yarasına dünya ictimaiyyətinin diqqətini cəlb etmək məqsədilə xarici ölkələrdə konsertlər verirdik. Əldə olunan gəlirdən Fidan və Xuraman Qasımovalar tələb olunan zəruri məişət məhsullarını alaraq bunları şəxsən özləri qaçqın düşərgələrində, uşaq evlərində paylamışdılar". Bu səhnə ulduzlarını tez-tez xaricdə böyük ustalıqla müşaiət etmiş Fərhad Bədəlbəyli "Azərbaycan qadını" jurnalında dərc edilmiş məqalədə də onların haqqında dəyərli fikirlərini bölüşüb: "Qasımova bacıları fenomeni Azərbaycan musiqisinin açılmamış sirlərindəndir. Azərbaycan opera sənətinin sayılan nümayəndələri, parlaq ulduzları, müasir milli klassik vokal məktəbini beynəlxalq aləmdə ilk dəfə tanıtmış Fidan xanım və Xuraman xanım sanki bir çərçivədə iki brilyantdır. Hər biri öz təkrar olunmaz parlaqlığı ilə işıq saçaraq digərinə kölgə salır, biri digərini tamamlayır".

Bir müddət Türkiyədə çalışdıqdan sonra Fidan və Xuraman Qasımovalar doğma ocaqlarına qayıdaraq Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətlərini davam etdirmişlər. Onların yetirmələri arasında hazırda Rusiyanın Bolşoy Teatrının solisti Dinara Əliyeva, öndə olan xalq artistləri – Əvəz Abdullayev, Gülnaz İsmayılova, Samir Cəfərov, əməkdar artistlər – Fəridə Məmmədova, Həsən Enami, Afaq Abbasova, Səidə Şərifəliyeva, Zaur Əmiraslanov, Aqşin Abdullayev, Əli İbrahimov, eyni zamanda, bir çox beynəlxalq müsabiqələrin laureatları və tanınmış müğənnilər onların siniflərinin məzunları olublar. Yorulmaq bilməyən Xuraman Qasımova hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kafedra müdiridir. Bütün gənc ifaçıları şəxsən özu dinləyir və heç bir tələbədən öz təcrübəsindən gələn bilik və bacarığını əsirgəmir. Fidan xanımın dərsləri isə ayrıca bir mövzudur. Tələbələri deyir ki, o, bizimlə məşğul olarkən var gücünü sərf edir, yumşaq səsi və təbiəti ilə çox dəyərli məsləhətlər verməsindən zövq alırıq.

***Nuridə İSMAYILZADƏ,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

# "Hophopnamə" yenidən Türkiyədə

**Bu günlərdə Ankaradakı "Bengü" yayın evində 20-ci əsr Azərbaycan şeirinin böyük isimlərindən olan Mirzə Ələkbər Sabirin "Hophopnamə" kitabı işıq üzü görüb. Kitabı nəşrə filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Altaylı hazırlayıb.**




Sanballı həcmdə – 446 səhifədən ibarət olan kitabın təqdimat yazısında bildirilib ki, şeirləri əsasən 1903–1911-ci illərdə "Molla Nəsrəddin" jurnalında dərc olunmuş Mirzə Ələkbər Sabir böyük satirik şair kimi tanınıb. "Hophopnamə" adı altında toplanan şeirləri ilk dəfə 1912-ci ildə təqdim olunub, sonralar Azərbaycanda dəfələrlə çap edilib. Türkiyədə isə 1975-ci ildə Mecit Doğru "Hophopnamə"nin populyar bir nəşrini buraxıb. Seçmələr şəklində olan başqa bir nəşri isə 2007-ci ildə "Türkiye İş Bankası" gerçəkləşdirib.

Seyfəddin Altaylının hazırladığı yeni toplu Türkiyədə orijinala uyğun şəkildə buraxılan ilk nəşrdir. Şeirlərin hamısı olduğu kimi, Azərbaycanın hazırkı rəsmi latin qrafikası ilə nəşr edilib. Tam anlaşılsın deyə, səhifələrin aşağısında şeirlərin tarixçəsi və ayrı-ayrı sözlərin izahları verilib. Kitabın sonunda isə azərbaycanca sözlərin qarşılıqları yer alıb. Bu da əsər üzərində çalışmaq istəyənlərə bir köməkdir. Bir sözlə, göstərilən şəkildə ərsəyə gətirilmiş "Hophopnamə"nin bu yeni nəşri həm tədqiqatçılar, həm də poeziyasevərlər üçün dəyərli bir qaynaqdır.

"Hophopnamə"nin ilk yayımından bir əsrdən çox vaxt keçsə də, Sabirin tənqid etdiyi, qamçıladığı mənfi hallara bu gün də dünyada rast gəlinir. Deməli, Sabir poeziyası 100 il sonra da aktuallığını saxlayacaq".

Qardaş Türkiyədə oxucuların marağına səbəb olacağı şübhə doğurmayan kitabın redaktorları Ülkər Hüseynova və Akif Əhmədgildir. Tədqiqat işi Bakı Avrasiya Universitetinin "Türkoloji araşdırmalar Mərkəzi"ndə icra olunub.

***Ə.NƏCƏFXANLI***
***XQ***

# Aşura günündə qanvermə aksiyası

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı, Gənclər Fondu, Milli QHT Forumu, Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi ilə aşura günündə keçirilən ümumölkə aksiyada Milli Məclisin deputatları, qeyri-hökumət təşkilatının üzvləri, idmançılar, könüllülər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Mərasimdə ölkəmizdə Məhərrəm ayında kütləvi olaraq təşkil edilən könüllü qanvermə ənənəsinin əhəmiyyəti vurğulanıb. Aşura günündə zorakılıq etmək, özünə xəsarət yetirmək əvəzinə, qanvermənin daha mütərəqqi seçim olduğunu bildirərək Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi təşəbbüsünün cəmiyyətdə təqdir edildiyi diqqətə çatdırılıb.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının xüsusi tibb briqadasının həkim-hematoloqlarının apardıqları humanist prosesdə toplanan qan hemofiliya və talassemiya, həmçinin digər xəstəliklərdən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

Qanvermə aksiyaları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin müəyyən etdiyi, ölkənin müxtəlif bölgələrini əhatə edən 35 (ali təhsil müəssisələri, xəstəxana, məscid və ziyarətgahlar) ünvanda keçirilib.



***

Aşura günündə Naxçıvan Muxtar Respublikasında da könüllü qanvermə aksiyası təşkil edilib.

Muxtar Respublika Səhiyyə Nazirliyindən verilən məlumata görə, aksiya Naxçıvan şəhəri üzrə 3 məsciddə və rayon mərkəzi xəstəxanalarında həyata keçirilib. "Həyat bəxş et" şüarı altında keçirilən aksiyada vətəndaşlar fəal iştirak ediblər. Könüllü aksiyada, ümumilikdə, 359 nəfərdən götürülən 179,5 litr qan "Qan Bankı və Qan Köçürmə Mərkəzi" Publik Hüquqi Şəxsinə təhvil verilib.

***

Dünən Gəncənin "İmamzadə" məscid ziyarətgah kompleksindədə könüllü qanvermə aksiyası keçirilib.

Səhər saatlarından başlayan qanvermə aksiyasında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, QMİ Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbrələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Aksiya zamanı həkim-hematoloqlar hər bir donorun sağlamlıq imkanlarını əvvəlcədən müəyyənləşdiriblər. Hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülüb. Toplanan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən şəxslər üçün istifadə olunacaq.

Qeyd edək ki, aksiya günün sonuna qədər davam edib. Qan vermək istəyən şəxslər növbəti 40 gün ərzində də Mərkəzi Qan Bankının Gəncə Bölməsinə müraciət edə bilərlər.

***XQ***



# ABŞ arxeoloqlarının Yardımlı axtarışı

**Azərbaycan–Amerika birgə ekspedisiyası Yardımlı rayonunda arxeoloji çöl-tədqiqat işləri aparır. Beynəlxalq ekspedisiyaya Amerika tərəfdən Hamilton Kollecinin professor yardımçısı, doktor Hannah Lau rəhbərlik edir.**

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun monitorinq qrupu dağlar diyarında ekspedisiyanın gördüyü işlərlə tanış olub. Qrupun üzvləri "Azərbaycanın cənub-şərq dağlıq ərazilərinin Antik dövr abidələrinin tədqiqi" layihəsi çərçivəsində Urağaran kəndi ərazisində yerləşən Bilgə nekropolunda, eyni adlı kənd ərazisində yeni aşkara çıxarılmış antik dövr yaşayış yerində, həmçinin Gilar kəndi ərazisində aparılan çöl-tədqiqatlarını yerində yaxından izləyiblər.

Bilgə nekropolunda tədqiqatlar 5 ildir ki, davam edir. Orada meqalit örtüklü daş qutu, küp və torpaq qəbirlər tapılıb. Məlum olub ki, 1 hektardan böyük ərazisi olan nekropol e.ə. 3-cü əsrdən eramızın 3-cü əsrinə qədərki 600 illik xronoloji çərçivəni əhatə edir. Nekropol daxilində, həmçinin ardıcıl olaraq eyni istiqamətdə dəfn olunmuş 8 ədəd at qəbirləri üzə



çıxıb. Atların bu cür dəfn edilməsi xüsusi ritualdan xəbər verir. Bilgədən təxminən 300 metr cənub-qərbdə tikili qalıqlarının aşkarlanması da diqqət çəkir. Görülən işlər kəşfiyyat xarakterli olsa da, uğurlu nəticə sayılır. Möhkəm özüllü təməl və divarları olan bu tikililərin müdafiə istehkamı olması istisna edilmir.

Sözügedən ərazilərdə tədqiqatlara rəhbərlik edən azərbaycanlı arxeoloq Ceyhun Eminlinin dediyinə görə, Gilarda araşdırmalar ekspedisiyanın builki tədqiqat planına daxil olub. Sevindirici haldır ki, burada da Antik dövrə aid tikili qalıqları aşkara çıxarılaraq tədqiq olunmaqdadır. Çay daşlarından hörülmüş divar qalıqlarının qarşısında isə küp və daş qutu qəbirlər müəyyən edilib. Qeyd edək ki, Yardımlı ərazisi Antik dövrdə mövcud olmuş Atropatena dövlətinin sərhədləri daxilində olub. ekspedisiyanın aşkara çıxartdığı və tədqiq etdiyi yaşayış yerləri və qəbir abidələri Atropatenanın arxeoloji cəhətdən öyrənilməsi üçün olduqca vacibdir. Aşkar edilmiş abidələri konservasiya etməklə burada gələcəkdə arxeoloji turizmin inkişafı üçün real imkanlar vardır. Monitorinq komissiyası ekspedisiyanın fəaliyyətini yüksək qiymətləndirib.

***XQ***

İDMAN

# Milli komandamız zəfər estafetimizi davam etdirəcək




**İyulun 26-da Fransanın paytaxtı Parisdə XXXIII Yay Olimpiya Oyunları start götürəcək. Yarışda Azərbaycanı 48 nəfər 15 idman növü üzrə təmsil edəcək. Son Oyunlarda – Tokio Olimpiadasında idmançı sayında (44 idmançı) eniş tempi bu dəfə artımla əvəz olunub. Komandamızın heyətində 48 idmançıdan 19-u qadındır. Bundan əvvəlki mötəbər yarışda Azərbaycanı 16 qadın idmançı təmsil edib.**

Yığmamızın heyətində 48 idmançıdan 29 nəfəri Olimpiya Oyunlarında ilk dəfə iştirak edir. Olimpiada təcrübəsi olan 24 idmançıdan 6 nəfəri bundan əvvəlki yarışda medallara da sahib olub.

Olimpiadaya güləşçilər geniş heyətlə (12 nəfər) gedəcəklər. Güləş yarışları avqustun 5–11-də keçiriləcək. Sərbəst güləş üzrə yığmamız tam heyətlə – 6 güləşçi ilə təmsil olunacaq. Komandanın heyətinə Olimpiya Oyunlarının gümüş və bürünc medalçısı, 3 qat Dünya və 4 qat Avropa çempionu Hacı Əliyev, son Dünya və Avropa çempionatlarının finalçıları Osman Nurməhəmmədov və Məhəmmədxan Məhəmmədov, 2023-cü il Avropa çempionatının qalibi Əliabbas Rzazadə, son Avropa çempionatının bürünc medalçıları Turan Bayramov və Giorgi Meşvildişvili daxil edilib.

Yunan-Roma güləşi üzrə isə son Olimpiya Oyunlarının bürünc medalçısı, 2 qat Dünya və 3 qat Avropa çempionu Rafiq Hüseynov, son 2 Avropa çempionatının qalibi Həsrət Cəfərov, son Avropa çempionatının qızıl medalçısı Murad Məmmədov, 2020-ci il Avropa çempionatının qalibi Sənan Süleymanov və 2016-cı il Rio Olimpiadasının bürünc medalçısı Sabah Şəriəti daxil edilib.

Qadın güləşi üzrə təmsilçimiz isə Olimpiya Oyunlarının 4 qat mükafatçısı, dəfələrlə dünya və Avropa çempionu Marina Stadnikdir. Bütün olimpiadalarda medal qazanan güləş yığmamız, mükafat sayına görə də həmişə fərqlənib. Bu növdə Sidney, Afina və London Oyunlarında qızıl medal qazanmışıq. Ən çox medalı isə "Rio-2016"da 9 mükafat əldə etmişik.

Ölkəmizi cüdo yarışlarında 9 çəki dərəcəsi üzrə 2 qadın və maksimum sayda – 7 kişi idmançı təmsil edəcək. Kişilərdən ibarət heyətdə dünya Olimpiya reytinqinin lideri, Dünya çempionu, Avropa çempionatının 4 qat qalibi Hidayət Heydərov (73 kq), öz çəkisində Olimpiya reytinqinin 1-cisi, Dünya və Avropa çempionu Zelim Kotsoyev (100 kq), eləcə də komandanın digər istedadlı tatami ustaları Balabəy Ağayev (60 kq), Yaşar Nəcəfov (66 kq), Zelim Tçkayev (81 kq), Elcan Hacıyev (90 kq) və Uşangi Kokauri (+100 kq) yer alıblar. Qadınların yarışında Leyla Əliyeva (48 kq) və Gültac Məmmədəliyeva (52 kq) qüvvələrini sınayacaqlar.

Azərbaycan bayrağı altında cüdo üzrə yeganə qızıl medal "Pekin-2008"də kişilərin yarışında əldə edilib.

Parisdə boks yarışları iyulun 27-dən avqustun 10-dək keçiriləcək. Kainatın güclü dəri əlcək ustalarının yarışına Azərbaycandan 5 boksçu qatılacaq. Boksçularımızdan 2-si – Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) 2-ci dəfə Olimpiya Oyunlarında iştirak edəcəklər. Tokio Olimpiadasının bürünc medalçısı Alfonso Dominqes Dünya çempionatının qalibi və gümüş mükafatçısıdır. Məhəmməd Abdullayev dünya çempionatlarının 2 qat bürünc medalçısıdır.

Komandamızın digər üzvlərindən Nicat Hüseynov (51 kq) 2 qat Avropa çempionu, Malik Həsənov (63,5 kq) Avropa çempionatının bürünc, Avropa kubokunun gümüş mükafatçısıdır. Millimizin gənc üzvü Murad Allahverdiyev (80 kq) olimpiadaya lisenziyanı III Avropa Oyunlarında təmin edib. "Atlanta-1996" istisna olmaqla bütün olimpiadalarda mükafat qazanan komandamızın aktivində, hələ ki, qızıl medal yoxdur. Boks komandamızın ən yaxşı nəticəsi Rio Oyunlarında (1 gümüş, 1 bürünc medal) olub.

Paris Olimpiadasında bədii gimnastların yarışında Zöhrə Ağamirova və qrup hərəkətləri komandası (Ləman Əlimuradova, Kamilə Əliyeva, Yelizaveta Luzan, Güllü Ağalarzadə və Darya Sorokina) iştirak edəcək. Zöhrə Ağamirova 2023-cü ildə bədii gimnastların Avropa çempionatında bürünc medala sahib olmaqla bu idman növü üzrə qitə çempionatlarında medala sahib olan birinci azərbaycanlı gimnast oldu. 2020-ci il olimpiadasında da Azərbaycan gimnastları qrup turnirlərində mübarizə aparıb. Qrup hərəkətləri komandamız 2022-ci ildə Dünya çempionatının bürünc medalını, 1 il sonra Avropa çempionatının qızıl medalını qazanıb. Selcan Mahsudova isə batut gimnastikası üzrə yarışda iştirak edəcək.

Eləcə də basketbol, taekvondo, atıcılıq, badminton, qılıncoynatma, kamandan oxatma, üzgüçülük, atletika, triatlon üzrə idmançılarımız Paris Olimpiadasında mükafat uğrunda mübarizə aparacaqlar. Onu da qeyd edək ki, ölkəmiz bu mötəbər yarışda ilk dəfə komanda idman növündə iştirak edəcək. Basketbolçularımız Parisə lisenziyanı Olimpiya Təsnifat turnirində qazanıblar. Atıcılıq və taekvondoda olimpiadalar tarixində böyük uğurlarımız olub. Hər 2 növdə Olimpiya qızılı qazanmağa nail olmuşuq.

Budəfəki Olimpiya Oyunlarında da idmançılarımız yüksək səviyyədə iştirak etmək əzmindədirlər. Yolunuz açıq, uğurlarınız bol olsun, əziz olimpiyaçılarımız!

***LeylaQ URBANOVA***
***XQ***

# İstanbulda bir məscid var...

## "Came tikdirə bilərsən, amma insanları cəm edə bilməzsən"

**Bir müddət əvvəl İstanbulda səfərdəydik. Boş vaxtımızda şəhərin görməli yerlərini gəzməyə qərar verdik. "Taksim" meydanı, "İstiqlal Caddesi", "Eyyubsultan ilçesi" deyilən əraziləri gəzdik. Qarşımıza müxtəlif modern üslubda inşa olunmuş binalar və onların arasından boylanan tarixi məsçidlər çıxırdı. İstanbulun hər guşəsi məscid, camiə kimi müsəlman memarlıq sənətinin inciləri ilə dolu idi.**



Zöhr namazının vaxtında hər tərəfdən azan səsləri gəlirdi. Hər məscidin önündə bir qələbəlik müşahidə edirdim. Təbii ki, bura uzun əsrlər İslam dünyasının paytaxtı olmuş İstanbul idi. Belə olmağı təbiidir. Lakin növbəti məscidin yanından keçərkən oradan azan səsinin gəlmədiyi, ətrafında seyrək adamların olması diqqətimi çəkdi. Bunu dostlarıma deyəndə o qədər də əhəmiyyət vermədilər. Maraq məni bürüdü və məscidin qarşısında eynəkli, ziyalı görkəmli bir nəfərə yaxınlaşıb soruşdum:

– Nə səbəbdən digər məscidlərdəki qələbəlik burada gözə dəymir?

O, nabələdliyimi duyub belə cavab verdi:

– Hər gün buradan da xeyli adam keçir. Məscidi ziyarət edənlər də, ibadət edənlər də olur. Amma kütləvi ibadət olmur. Yəni kənardan gələnlər, məscid haqqında məlumatı olmayanlar namaz qılar, ancaq yerli əhali burada namaz qılmaz.

Sonra o, təfsilata keçdi:

– Hadisə Sultan Süleymanın hakimiyyəti illərində baş verib. Osmanlının mübaliğəsiz olaraq qüdrətli hökmdarı hesab edilən Süleymanın hakimiyyəti ilərində qarşısına çıxan bir çox əngəlləri amansızcasına aradan götürür. Əlbəttə, dövlət başçısı, əlində hüdudsuz hakimiyyət cəmləşən birisinin bunu etməsi bəlkə də Orta əsrlər təfəkküründə normal qəbul olunur. Hakimiyyətini və dövləti qorumaq naminə, özünün təbirincə desək, ibrəti-aləmə dərs olsun deyə, atdığı qəddar addımları da anlamaq olar.

Amma məsələ bununla bitmir. Süleyman bu qəddarlığı təkcə kənarlara deyil, öz ailə üzvlərinə qarşı da etməkdən çəkinməmişdir. Belə ki, oğlu Mustafanın ölümünə fərman vermişdir. Əlbəttə, şahzadə Mustafanın xalq və xüsusilə, Osmanlı ordusunun ən güclü alaylarının olduğu yeniçərilər arasında nüfuzundan və oğlunun bir gün onu devirəcəyindən narahatlıq keçirən Süleyman onu qaralamağa başlayır. Mustafanın hər bir cəsarətli hərəkəti Süleymanı daha da narahat edir.

Bir sıra tarixçilərin iddiasına görə, baş hərəmi Xürrəm sultan da atanı oğula qarşı qızışdıran vəsvəsələr edir. Çünki Xürrəm sultan Süleymanın ilk həyat yoldaşı Mahidevran sultanın deyil, məhz özünün dünyaya gətirdiyi oğulların hakimiyyət başına keçməsini arzulayırdı. Bunun üçün isə hər dəfə hiyləyə, məkrə baş vurmağı mübah hesab edirdi. Belə də olur.

Bizə bu hadisəni danışan tarixçi alimin də iddiasına görə, Xürrəm sultan kürəkəni Rüstəm paşayla əlbir olur Mustafanın, guya, atasına və dövlətə xəyanət etməsi planını qururlar. Guya, şahzadə Mustafa Səfəvi hökmdarı Şah Təhmasiblə gizli ittifaq qurur, yazışır və atasını devirmək üçün ondan kömək istəyir. Süleyman bu xəyanət ittihamına inanır və oğlunun ölüm fərmanını verib çadırına çağırtdırır. Mustafa günahsız olduğunu bildirmək üçün ağ libasda, tamamilə silahsız, qoşunsuz onun yanına – qərargahına gəlir. Lakin atası artıq onun ölüm fərmanını vermişdi. Oğlunu dinləmək belə istəmir və beləliklə, Mustafa çadırda cəlladlar tərəfindən boğdurulur. Təkbaşına onların hamısı ilə əliyalın savaşan, onlara güc gələn Mustafa çadırdan bayıra çıxmağa çalışanda Süleymanın mühafizəçilərinin başçısı cüssəli pəhləvan olan Zal Mahmud paşa üstünə atılır və onu iplə boğmağa başlayır. Nəticədə, şahzadə Mustafa qətlə yetirilir.

İstanbulda olanda bir sıra böyük camilər gördüm. Bunların ən gözəllərini, ən ehtişamlılarını Süleymanın dövründə imperiyanın baş memarı çalışmış Sinan tikmişdi. Bu dəfə qarşısında olduğum və bir qədər sönük görünən Zal Mahmud Paşa camisinin də məhz memar Sinan tərəfindən tikildiyini öyrəndim. Rəvayətə görə, Mustafanın ölümü xalq kütlələrini və yeniçəri qoşunlarını çox sarsıdır. Günlərlə, aylarla ona matəm saxlayırlar. Heç kəs Mustafanın xəyanət etməsinə inanmır. Günlərin birində Zal Mahmud paşa Memar Sinana bir məscid tikməsi üçün sifariş göndərir. O isə hər vəchlə bundan yayınırmış. Hətta bir neçə il bu məsələni uzada bilir. Həmin illərdə Qanuni Sultan Süleyman vəfat edir və Sinan düşünür ki, yeni gələn sultan Zalı azad edəcək və bu sifariş baş tutmayacaq. Bununla da könülsüz yanaşdığı bu sifarişdən canı qurtulacaq. Ancaq belə olmur. Süleymandan sonra hakimiyyətə gələn Sarı Səlim Zalı bir qədər də yüksəldərək ona vəzirlik verir. Belə olan təqdirdə gördüyümüz bu cami 1577-ci ildə inşa edilir.

Əlbəttə, Mustafa kimi xalq sevgisini qazanmış şahzadəni əlləri ilə boğan bir caninin sifarişini yerinə yetirmək onun ürəyincə ola bilməzdi. Amma məcbur idi. Çünki Mustafa ilə bağlı qərar sultanın fərmanı idi və müzakirə olunmurdu. Lakin Zal Mahmuda nifrət o qədər kəskin olmuşdur ki, uzun illər o məscidə bir insan addımını belə atmamışdır. Hətta, indi də turistlər və bəzi dindarlar ibadətləri üçün gəlirlər. Lakin digər camilərə gələn kütləni burada görmək olmur. Sanki hər kəsin qulağına pıçıldayırlar ki, baxın ha, məscidi tikdirən Zal Mahmud şahzadə Mustafanı qətlə yetirən həmin canidir.

Sonda tarixçi alim üzünü bizə tutaraq dedi: Bəli, dəyərli dostlar, ona görə də bizdə belə bir məsəl var. Deyirlər ki, cami də tikərsən, amma camaatı ora cəm edə bilməzsən.

***Ana T URAN***
***XQ***




Müğənni Azərin Ankarada Demokratiya və Milli Birlik Gününə həsr olunmuş konsertdə çıxışı zamanı tamaşaçıları "boz qurd" jesti ilə salamlayıb. Konsertdə iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan məşhur "Çırpınırdı Qara dəniz" mahnısını ifa edən azərbaycanlı müğənnini alqışlayıblar.

BEYNƏLXALQ HƏYAT

# Pakistanda terror aktları

**İyulun 16-da Pakistanın Xayber-Paxtunxva əyalətinin Banu rayonunda 10 terrorçunun hərbi düşərgəyə hücumu nəticəsində səkkiz hərbçi ölüb, terrorçuların hamısı məhv edilib.**



Pakistan mətbuatının verdiyi məlumata görə, hücumu Pakistandakı "Taliban" hərəkatının "Xafiz Qul Baxadur" qruplaşmasının üzvləri törədib.

Həmin gün əyalətin Dera İsmayıl xan rayonundakı tibb mərkəzinə hücum zamanı törədilən digər terror aktında isə 5 mülki vətəndaş, 2 tibb işçisi öldürülüb. Hadisə yerinə gələn hərbçilərdən 2-si atışmada həlak olub, 3 terrorçu sıradan çıxarılıb.

İkinci terror aktına görə məsuliyyəti hələ ki, regionda olan heç bir qruplaşma öz üzərinə götürməyib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**İslamabad**

# Qərb Rusiya ilə ticarəti hədəfə alıb

**Rusiya ilə ticarət Türkiyə sahibkarlarını Qərbin qəzəbinə gətirib. Bu barədə iqtisadi şərhçi Mustafa Rəcəb Ercin "RİA Novosti"yə müsahibəsində deyib ki, Qərb rəsmiləri Rusiya ilə ticarət əlaqələrinə görə türk iş adamlarını birbaşa hədələyirlər: "Təəssüf ki, sanksiyalar təkcə Rusiyaya deyil, Türkiyəyə də mənfi təsir göstərir".**



Ercin bildirib ki, Rusiyadan mal gətirən və oraya mal göndərən türk tacirləri bank hesablarının dondurulmasından tutmuş Qərb rəsmilərinin təhdidlərinə qədər bir çox problemlərlə üzləşirlər. Bu vəziyyət Türkiyənin Rusiya ilə ticarət dövriyyəsinin azalmasına gətirib çıxarır. Məsələn, son altı ayda bu ölkəyə göndərilən mal yarıbayarı azalıb. O deyib: "Qida sektoru istisna olmaqla, bütün sahələr sanksiyadan zərər görür. Dəri və dəri məmulatları sektoruna təsir daha çoxdur".

***PÜNHAN***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan fərdi mühafizə vasitələrinin 4 (dörd) lot üzrə satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il iyulun 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Bakı Yoltexnikatəmir" ASC səhmdarlarının nəzərinə!

30 avqust 2024-cü il saat 15.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına aid idarə heyətinin hesabatı.

2. Digər məsələlər.

*İdarə heyəti*

"Bakıenerjitikinti" ASC səhmdarlarının nəzərinə!

"Bakıenerjitikinti" ASC səhmdarlarının 2023-cü ilin yekununa həsr olunmuş ümumi yığıncağı 26 sentyabr 2024-cü il saat saat 11.00-da Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu dairəsi 37 nömrəli ünvanda "Bakıenerjitikinti" ASC-nin inzibati binasında keçiriləcəkdir.

Bütün səhmdarların həmin iclasda iştirak etməsi xahiş olunur.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 148 (30552) 17 iyul 2024-cü il, çərşənbə

İDMAN

## 3 karate medalı

**Azərbaycanın 2 karateçisi Astana şəhərində keçirilən "Kazakhstan Open" beynəlxalq turnirdə mükafat qazanıb.**



Komandamızın üzvlərindən 61 kiloqram çəki dərəcəsində mübarizə aparan Oksana Nakoneçna gənclərin yarışında bütün rəqiblərinə qalib gələrək 1-ci yeri tutub. Oksana böyüklərin yarışında bürünc medal qazanıb. Rəşid Süleymanov (16-17 yaş) isə 76 kiloqram çəki dərəcəsində gümüş medala layiq görülüb.

## Uşaq şahmatımızın "gümüş"ü



**Azərbaycan şahmatçısı Mirsaleh Seyidli Gürcüstanın Batumi şəhərində "8th International Chess Festival – Batumi Municipality Cup-2024" beynəlxalq turnirində fərqlənib.**

Naxçıvan Şahmat Mərkəzinin yetirməsi B qrupunda 9 oyunda 6 xal toplayaraq 16 yaşadək şahmatçılar arasında 2-ci yeri tutub.

Qeyd edək ki, 23 ölkədən 434 şahmatçının qatıldığı turnirdə, müvafiq reytinq göstəricilərinə əsasən, A, B, C qruplarında, o cümlədən 8,10 və12 yaşadək oğlan və qızlar arasında görüşlər keçirilib.

## Portuqaliyada daha 2 mükafat



**Azərbaycan idmançıları Portuqaliyanın Santarem şəhərində keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə "Scalabis Cup" turnirində daha iki medal qazanıblar.**

Yığmanın heyətində Ömər Qasımlı qızıl, Əli Niftəliyev isə gümüş mükafata sahib çıxıblar.

Qeyd edək ki, hər iki idmançı batut gimnastikası üzrə yarışıb.

*L.QURBANOVA*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Redaksiyaya məktub

## Şəfqət rəğbət doğurur

**Hörmətli redaksiya!** Uzun illərdir səhhətimdə yaranan problemlərlə bağlı Mərkəzi Neftçilər Xəstəxanasına tez-tez müraciət etməli oluram. Mən sadə bir peşə sahibiyəm. Tam səmimiyyətlə deyə bilərəm ki, burada mənə böyük diqqət və qayğı göstərirlər. Belə münasibət mənə çox xoş gəlir.

Bu tibb ocağına tanınmış səhiyyə təşkilatçıları Həsənağa Əliyev və Fəxrəddin Cavadov kimi humanist həkimlər rəhbərlik ediblər, peşəkar, xeyirxah ab-hava yaradıblar. Xoşbəxtlikdən bu ənənəni hazırda xəstəxananın baş direktoru vəzifəsində çalışan Musa Abbasov qoruyub saxlayır.

Bu məktubu yazmaqda əsas məqsədim xəstəxananın həkimlərinin öz vəzifə borclarını layiqincə yerinə yetirmələrindən qısa da olsa söz açmaqdır. Reanimasiya şöbəsinin müdiri rəhmətlik Fikrət Əfəndiyevə, uzun illər müalicə həkimim olan Zəhra Məhərrəmovaya daim minnətdarlıqla xatırlayacağam.

Bu kollektivdə hamı öz işinə böyük məsuliyyətlə yanaşır. Müalicə şöbəsinin müdiri Laləxanım Hüseynova, oftalmoloq Elşən İbrahimov, LOR həkimi İradə Əlizadə, qastroloq Tünzalə Mirzəyeva və digər həkimlərdən yerdən göyə razıyam. Necə deyərlər, şəfqət rəğbət doğurur.

Sonda bildirmək istəyirəm ki, nə yaxşı ki, Azərbaycan səhiyyəsində belə peşəkar həkimlər, genişürəkli, xeyirxah insanlar var. Allah ömürlərini uzun, canlarını sağ eləsin!

**Məzahir MƏMMƏDOV,**
**ikinci qrup əlil**
**Bakı sakini**

# Ay mənim Göyçək nənəm...

**Bu dünyadan 99 yaşında köç edən Göyçək nənəm adına layiq tərəkəmə qadını idi – gözəl, ucaboy. Yeddi taxta tuman geyinərdi. Uşaq vaxtı mən onun tumanının ətəyindən tutub kənd-kəsəyi gəzərdim.**



Faşizmə qarşı müharibəyə bizim nəsildən babam, atam və əmim gediblər. Babam Səməndər kişi şöhrətli 416-cı Taqanroq diviziyasının əsgəri kimi Berlinədək döyüş yolu keçib, qələbədən bir müddət sonra həlak olub.

Atam Kerç uğrunda döyüşlərin iştirakçısı olub, iki dəfə yaralanıb. Xeyli orden, medal alıb. Onun pasportunda doğum günü yazılmamışdı. Atam deyirdi ki, müharibədən sağ çıxmışamsa mənim doğum günüm 9 maydır.

Ələsgər əmim cəbhəyə gedəndə 17 yaşı olub. O, əvvəlcə Mahaçqalada hərbi məktəb bitirib və leytenant rütbəsi alıb. Dəstəsi ilə Ahiska türklərinin vətənində almanlara qarşı vuruşub. Döyüşlərin birində həlak olub.

Müharibə illərində kənddə nənəm, üç ayın gəlini anam və 4 yaşlı əmim qalıb. Ailənin yükünü çəkən nənəm o illərdə çiynində qoşalülə gəzdirərmiş. Qaçaq, quldur gecələr həyətlərə basqın edib, mal-qaranı aparırmış. Buna görə də nənəm yazda, yayda həyətdəki çardaqda yatarmış. Səs eşidən kimi qoşalüləni gecənin qaranlığına boşaldarmış. Kənddə qalan əhali deyirmiş ki, Cöyçək arvad sayıqdı, kimsə onun qorxusundan kəndə girə bilməz.

Anam danışardı ki, nənəniz bəzən alatoranda durub xalçalardan birini kürəyinə alar, piyada Qarasu stansiyasına gedərdi. Oradan da Bakıya. Qayıdanda un, qənd, yarma, sabun gətirərdi. Atam Kerç döyüşlərində yaralanıb Gürcüstandakı hospitallarda yatanda nənəm gəzə-gəzə onu tapıb, oğluna və digər yaralı əsgərlərə qulluq edib.

Babamın və Ələsgər əmimin müharibədən qayıtmaması nənəmin qəlbində heç vaxt qaysaqlanmayan yara açıb. O, bu dərdi illərlə çəkə-çəkə yaşayıb, ağlamaqdan gözləri işığa həsrət qalıb. Tale ona çox ağrı-acı yaşadıb, ömrü-günü əriyib gedib.

Eldar əmim evlənəndən sonra Göyçək nənəm onlara köçdü. Amma biz ayrıla bilmirdik, onun üçün darıxırdıq. Onu da deyim ki, nənəm nəvələrindən ən çox məni istəyirdi. Bunun səbəbini hamı yaxşı bilirdi. Çünki mən cəbhədən qayıtmayan Ələsgər əmimə oxşayırdım. Anam deyirdi ki, sən qapıdan girəndə elə bilirəm Ələsgər qayıdıb. Mən, demək olar ki, hər gün nənəmə baş çəkməyə gedərdim. O, məni görən kimi gülümsəyərdi. Tez-tez bişirib tavaya tökdüyü südün qaymağını kasaya yığıb, qarşıma qoyar və deyərdi:

– Yaman sınıxmısan, ye. O müəllim verən kitabları da az oxu, gözlərinin qarası gedər... O kitablarda yazılanların hamısı yalandı...

İllər sonra mən bildim ki, nənəmin "yalan" deməsi nə ilə bağlı imiş. Sən demə, kolxoz qurulanda nənəmin atası əlində qalan bir cüt öküzü və arabanı kolxoza vermək istəməyib. Elə buna görə onu "kulak" adı ilə harasa sürgün eləyiblər. Böyük babamın oğlanları "xalq düşməni" adının ağrısını illərlə yaşamalı olublar. Bu söylədiklərim də nənəmin ürəyində bir ağrılı düyünə cevrilmişdi. O, bəzən saatlarla eyvanda oturub sonu ilğıma dönən tozlu yollara baxar, öz-özü ilə sakitcə danışardı. Hərdən mən ona yaxın dayanıb dediklərini öyrənmək istəyirdim. Ancaq o, küləyin oynatdığı yarpağın səsinə bənzər səs çıxardığından heç nə başa düşmürdüm. Bəlkə də nənəm cəbhədən dönməyən əzizlərinin ruhu ilə danışırdı. Bəlkə də biz nəvələrinə görə Uca Rəbbimizə dualar edirdi. Bəlkə yola saldığı ağrılı həyata görə "üsyan" edirdi. Nə bilim...

Mən universitetə girəndə nənəm sevinmədi. Dedi ki, oxuyub, nə bilim harada yaşayacaqsan, üz-gözünə həsrət qalacam. Buna görə də mən tələbəlikdə, həm də təyinatla Şamaxıda işləyəndə kəndə dönən kimi nənəmi görməyə gedərdim. O illərdə artıq nənəm bu dünyanı alatoran görürdü. Gözləri əməliyyat olunsa da tam açılmamışdı. Nənəm uzaqdan qaraltı görəndə soruşarmış ki, gələn Səməddi?

O, əllərimi tutub danışır, atamdan mənə şikayət edərdi. DeyirdI ki, dədən mənim yanıma niyə gec-gec gəlir? Mən isə nənəmin söylədiklərini atama deməkdən çəkinirdim, çünki o, sərt adam idi.

Bəzən də deyirdi ki, yenə kağız qaralayırsan?

Mən isə cavabında:

– Kağız qaralamıram ee, nənə, qəzet üçün yazı yazıram.

O isə başını bulayıb:

– O nə işdi?, – deyirdi. Sonra da əlavə edirdi ki, bu kənddə ev-eşik sahibi olan tay-tuşlarına bax, heç ağlı səninkinin yarısı olmayanlar özlərinə necə şərait qurublar. Sən nə ağıla qulluq eləyirsən, bilmirəm. Kişinin evi olar, həyəti olar, darvazası olar, iti, pişiyi olar....

Həyatımın ən gözəl illərini şəhərdə "yelə" verəndən sonra bir vaxtlar mənə həyat dərsi verən nənəmə haqq qazandırdım. Bir də illərin mənə verdiyi dərs bu oldu ki, insan hansı sənət, peşə sahibi olursa-olsun, hansı vəzifəni tutursa-tutsun, ancaq doğmalarının yanında, öz el-obasında daha xoşbəxt ola bilər.

Yazıq nənəm, gözəl nənəm, ömrü-günü ağrılar içində əriyən Göyçək nənəm.

**Səməd MƏLİKZADƏ**

## 7 min il yaşı var, 7 qat faydası var

**Sirkə orqanizmdə bakteriya və virusları məhv edən ən təbii içkilərdən biridir. Türkiyəli professor, dietoloq həkim Canan Karatayın sözlərinə görə, sirkə 7 min ildir istifadə edilən təbii dərmandır.**



O, ev sirkəsinin ən sağlam içki olduğunu diqqətə çatdırıb. İnsanlara müraciətlə "Xahiş edirəm bundan istifadə edin", – deyən professor sirkəni mütləq evdə hazırlamağı məsləhət görüb. C. Karatay qeyd edib ki, bazar və marketlərdə satılan sirkədən məişətdə təmizlik üçün istifadə etmək daha məqsədəuyğundur.:"Ev sirkəsi özünüz hazırladığınız zaman ən sağlam içkidir. Hər cür paraziti öldürür, toksinləri çıxarır, orqanizmi təmizləyir".

Professor təbii sirkəni səhər saatlarında içməyi və ya salatlara əlavə etməyi məsləhət görüb. O, əlavə edib ki, evdə hazırlanmış sirkədən 2 ay istifadə etmək olar.

C. Karatay təbii alma sirkəsini hazırlamağın qaydasını da izah edib: "Evdə alma sirkəsi hazırlamaq üçün sizə alma, içməli su, təbii fermentləşdirilmiş alma sirkəsi, şüşə qab və istilik saxlaya bilən örtük lazımdır. Almalar yuyulduqdan sonra doğrayıb bankaya qoyun və onların üzərini örtəcək qədər içməli su əlavə edin. Sonra 1 stəkan fermentləşdirilmiş alma sirkəsini də buraya qatın. Qarışdırdıqdan sonra üzərini örtüb qaranlıq yerdə saxlayın".

*Z.HÜSEYNLİ*
*XQ*

*"SEDEF PHARMA" MMC-yə məxsus dərman vasitələrinin topdan satışı fəaliyyətinə aid, 6 oktyabr 2020-ci il tarixli, İN/L-73/2017/2 qeydiyyat nömrəli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.*

*VÖEN – 3102046881.*

## Yenə də Aranda yağmursuz və isti, dağlarda yağış, həm də külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 17-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**



Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, bəzi yerlərdə 40°, dağlarda gecə 12-17°, gündüz 21-26° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3114
SİFARİŞ 1572
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00